QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 217 (6181) 4 dekabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## İqtidarın siyasi dialoq təşəbbüsləri davam edir



*Azərbaycanda iqtidar-müxalifət dialoqunun inkişafı Prezident İlham Əliyevin dövlətçilik siyasətinin prinsipial istiqamətlərindəndir. Təqdirəlayiq haldır ki, ölkədə yeni siyasi konfiqurasiyanın formalaşmasında müxalifət partiyaları yaxından iştirak edirlər. Sözügedən...* Bax 3

## Ceyhun Bayramov: "10 noyabr razılaşması Cənubi Qafqazda sülh və sabitliyi təmin edəcək"



*Həll edilməmiş münaqişələr sülh və sabitliyə təhdidlər yaradır. Buna görə də münaqişələr ikili standratlar tətbiq edilmədən Helsinki Yekun Aktının prinsipləri əsasında həll edilməlidir. SİA-nın məlumatına görə, bunu Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının iclasında...* Bax 3

# Zəfər Günün mübarək, Azərbaycan!



Ali Baş Komandan, Prezident İlham Əliyevin Sərəncamı:
"Zəfər Günü hər il noyabrın 8-də təntənəli şəkildə qeyd ediləcəkdir"

ax 4

## Ordumuz Xankəndinə nə vaxt daxil olur?



## KORONAVİRUSA yoluxmalar çoxalır - Karantin qaydaları sərtləşdiriləcək?



## Mövlud Çavuşoğlu: "Münaqişəyə son qoymağa yönəlmiş bütün cəhdləri dəstəkləyirik"



*Qarabağ üzrə razılaşma Ankara və Yerevan arasında münasibətlərə müsbət təsir edə bilər. SİATürkiyə KİV-lərinə istinadla xəbər verir ki, bu barədə Xarici İşlər naziri Mövlud Çavuşoğlu ATƏT-in Xarici İşlər Nazirləri Şurasının video-konfrans formasında keçirilən 27-ci iclasında çıxış edərkən deyib...* Bax 3

## Rus jurnalist: "Xankəndidə hər kəsin silahı var, sülhməramlılar isə..."

Bax 6



*Rusiyanın RBK xəbər agentliyinin müxbiri Xankəndinə səfəri haqda danışıb və şoka düşdüyünü bildirib. SİA Rusiya mətbuatına istinadən xəbər verir ki, RBK-nın jurnalisti Sergey Atasuntsev "Moskvanın səsi"...*

## Liparityan: Yuxu görmək Ermənistanın həyat strategiyasıdır



Bax 11

## Bu gün Vətən müharibəsi şəhidlərinin xatirəsi yad ediləcək



Bax 7

## Şillə dalınca şapalaq



Bax 14

# Nyu-Yorkda BMT Baş Assambleyasının COVID-19 ilə mübarizəyə həsr edilən xüsusi sessiyası keçirilib

## *Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının Sədri İlham Əliyev sessiyada videoformatda çıxış edib*



***Dekabrın 3-də Nyu-Yorkda BMT Baş Assambleyasının koronavirus xəstəliyi - COVID-19 ilə mübarizəyə həsr edilən xüsusi sessiyası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının Sədri İlham Əliyev sessiyada videoformatda çıxış edib.***

Prezident İlham Əliyevin çıxışı

-Hörmətli cənab Sədr.

Hörmətli dövlət və hökumət başçıları. Xanımlar və cənablar.

Qoşulmama Hərəkatının üzvü olan 120 dövlət adından çıxış etməkdən şərəf duyuram.

Aktual qlobal məsələlərə və çağırışlara cavab vermək üçün çoxtərəfli mühüm forum olan BMT-nin 75 illiyini qeyd etdiyimiz bir vaxtda narahatlıq doğuran çoxlu sayda yeni sahələrin meydana çıxmasını təəssüf hissi ilə bildiririk. Həmin narahatlıqlar BMT Nizamnaməsinin və “Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi”nin təməlində duran multilateralizmə və beynəlxalq əməkdaşlıq dəyərlərinə kollektiv sadiqliyimizi yenidən nümayiş etdirməyi tələb edir.

Bunun bariz nümunəsi Qoşulmama Hərəkatı tərəfindən irəli sürülmüş BMT Baş Assambleyasının COVID-19 pandemiyasına qarşı Xüsusi Sessiyasının keçirilməsi təşəbbüsünə BMT-nin üzv dövlətlərinin böyük dəstəyidir. Digər məsələlərlə yanaşı, bu, Qoşulmama Hərəkatının üzv dövlətlərinin möhtəşəm uğurudur. Çünki biz bu il həm də beynəlxalq əməkdaşlığın təşviqini özündə ehtiva edən Bandunq Bəyannaməsinin qəbul olunmasının 65 illiyini qeyd edirik. Bununla əlaqədar, Xüsusi Sessiyanın keçirilməsinə verdikləri dəstəyə görə mən Hərəkat adından BMT-nin üzv dövlətlərinə və Baş Assambleyanın Sədrinə səmimi təşəkkürümüzü bildirmək istərdim.

2020-ci il ərzində dünya ictimaiyyəti müasir tariximizin ən ciddi səhiyyə böhranı ilə üzləşib. Hazırda dünyada 60 milyondan artıq yoluxma halı qeydə alınıb və 1 milyondan çox insan həyatını itirib. Səhiyyə, ictimai, iqtisadi və maliyyə sahələrində çoxşaxəli fəsadlara yol açan bu böhran cəmiyyətlərə, iqtisadiyyata, qlobal ticarət və səyahətə böyük zərər yetirmiş və insanların yaşayışına sarsıdıcı təsir göstərmişdir.

Pandemiyanın misli görünməmiş universal fəsadlarının aradan qaldırılması üçün qlobal səylərə töhfə vermək və Qoşulmama Hərəkatına üzv dövlətlərə operativ, adekvat və əhatəli yardımın göstərilməsi məqsədilə Azərbaycan Qoşulmama Hərəkatının Sədri qismində 2020-ci il mayın 4-də Qoşulmama Hərəkatının COVID-19-a qarşı Təmas Qrupunun onlayn Zirvə görüşünü təşkil etmişdir. Həmin toplantının praktiki nəticəsi olaraq, Hərəkata üzv dövlətlər COVID-19 ilə mübarizə və koronavirusla bağlı Qoşulmama Hərəkatının üzv dövlətlərinin əsas humanitar, tibbi ehtiyac və tələblərinə dair məlumat bazasının yaradılması üçün işçi qrupun təsis edilməsi qərarına gəlmişlər.

Məmnuniyyətlə qeyd etmək istərdik ki, pandemiya ilə bağlı tədbirlərin görülməsi zamanı Ümumdünya Səhiyyə Təşkilatı Qoşulmama Hərəkatına üzv dövlətlərin mövcud ehtiyaclarının müəyyənləşdirilməsi üçün Hərəkatın məlumat bazasını istinad mənbələrindən biri kimi istifadə edir.

Qoşulmama Hərəkatı BMT sisteminin COVID-19 ilə mübarizədə fəaliyyətini yüksək qiymətləndirir. Biz pandemiyaya qarşı qlobal mübarizədə BMT-nin fəaliyyətinə rəhbərlik edən, onun əməliyyatlarının davamlılığını təmin edən Baş katibin güclü liderliyini təqdir edirik. Hərəkat COVID-19 pandemiyası ilə bağlı artmaqda olan çağırışlarla mübarizədə beynəlxalq ictimaiyyət tərəfindən təsirli tədbirlərin görülməsi üçün təlimatların verilməsi, təlimlərin və avadanlıq, konkret xilasetmə xidmətlərin təşkili sahəsində Ümumdünya Səhiyyə Təşkilatının və onun rəhbərliyinin mühüm rolunu tam şəkildə dəstəkləyir.

Pandemiya istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələrdə zəiflikləri və bərabərsizliyi aşkara çıxararaq onları daha da kəskinləşdirmiş, habelə yoxsulluğu dərinləşdirərək ən həssas kateqoriyadan olan insanların vəziyyətini daha da ağırlaşdırmışdır. Pandemiya ən yoxsul və zəif vəziyyətdə olan ölkələrə daha çox zərbə vurmuşdur. Qoşulmama Hərəkatı böhranın davam edən fəsadlarının böyük çətinliklə əldə olunmuş nailiyyətləri geri atacağından və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində tərəqqiyə mane olacağından dərin narahatlıq keçirir.

Həmçinin narahatlıq hissi ilə onu da qeyd etmək istərdik ki, pandemiya ədalətli və bərabərhüquqlu dünya nizamına nail olmaq üçün mövcud fundamental problemlərin daha da artmasına səbəb olmuşdur. Qoşulmama Hərəkatının 2019-cu ildə Bakıda keçirilmiş 18-ci Zirvə toplantısında da müzakirə edilmiş bu problemlər qlobal maliyyə və iqtisadi böhranın təsirləri, inkişaf etməkdə olan ölkələrin əksəriyyətində resurs qıtlığı və iqtisadi-sosial gerilik, qeyri-bərabər ticarət şərtləri və inkişaf etmiş ölkələrin kifayət qədər əməkdaşlıq etməməsi, onların bəziləri tərəfindən birtərəfli və məcburedici tədbirlərin tətbiqi, habelə gücdən istifadə və ya gücdən istifadə ilə hədələmə və digərlərindən ibarətdir.

Qoşulmama Hərəkatı bütün ölkələrin dərman, vaksin və tibbi avadanlığa münasib, maneəsiz və bərabər çıxışının əhəmiyyətini vurğulayır.

COVID-19 əleyhinə bir çox vaksinlərin tədqiqatının davam etdiyi bir vaxtda biz kliniki sınaqların uğurlu nəticələrini gözləyir və ümid edirik ki, təhlükəsiz və təsirli vaksin tezliklə hazır olacaq və onun hamı üçün münasib qiymətə paylanılması təmin ediləcəkdir. Biz bu prosesdə ÜST-nin əlaqələndirmə səylərini yüksək qiymətləndirir və vaksin hazır olduğu zaman təşkilatın insanların belə bir vaksinə bərabər çıxışının təmin edilməsində rolunun vacibliyini vurğulayırıq.

Cənab Sədr, beynəlxalq ictimaiyyət yalnız birlik, çoxtərəfli əməkdaşlıq, həmrəylik və insan hüquqlarına hörmət əsasında COVID-19-un fəsadlarının aradan qaldırılması və indi yayılmaqda davam edən pandemiyadan xilas olmaq üçün strategiyalar hazırlaya bilər.

Bu Xüsusi Sessiya beynəlxalq əməkdaşlıq və multilateralizmə sadiqliyin bir daha təsdiq edilməsi və gücləndirilməsi, habelə ən yaxşı təcrübələrin vurğulanması kimi geniş məqsədlərə xidmət edəcək. Xüsusi Sessiyada həm də pandemiyaya qarşı mübarizədə üzv dövlətlərin üzləşdiyi çağırışlar nəzərdən keçiriləcək və üzv dövlətlər, müşahidəçi dövlətlər, müşahidəçilər, BMT-nin aidiyyəti agentlikləri, qurumları və digər maraqlı tərəflər arasında açıq və şəffaf müzakirələrdə BMT-nin mərkəzi roluna dair fikir mübadiləsi aparılacaq. Sessiyanın çərçivəsində səmərəli müzakirələrin aparılacağına inanırıq. Sağ olun.

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev “Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 dekabr tarixli 2312 nömrəli Sərəncamının ləğv edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 dekabr tarixli 1704 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Vətən müharibəsi şəhidlərinin xatirəsinin yad edilməsi haqqında Sərəncam imzalayıb.

# Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məlumatı



***Ermənistanın ardıcıl təxribatları və hərbi təcavüzünə cavab olaraq 2020-ci il sentyabrın 27-də Azərbaycan xalqı Ermənistanın otuz ilə yaxın davam edən işğalçılıq siyasətinə son qoymaq və torpaqlarımızı düşmən tapdağından azad etmək uğrunda Vətən müharibəsinə qalxmışdır. 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan xalqı tarixi qələbə qazanmış, ölkəmizin ərazi bütövlüyü bərpa olunmuşdur.***

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında” 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən Vətən müharibəsində misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 10-nun Azərbaycanda Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi qərara alınmışdır.

Bununla yanaşı, noyabrın 10-u Türkiyə Cümhuriyyətinin qurucusu, adı türk dünyasının tarixinə qızıl hərflərlə həkk olunmuş böyük şəxsiyyət Mustafa Kamal Atatürkün anım günüdür. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: “Mustafa Kamal Atatürk sizin üçün nə qədər əziz və hörmətli olubsa, o qədər də azərbaycanlılar üçün əziz və hörmətlidir”. Azərbaycanı ürəkdən sevən, “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir” deyən Mustafa Kamal Atatürk hər bir azərbaycanlının qəlbində özünə yer etmişdir, onun xatirəsi ölkəmizdə də böyük ehtiramla yad olunur.

Noyabrın 10-nun Türkiyədə Mustafa Kamal Atatürkün anım günü olduğunu nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Zəfər Gününün tarixinin dəyişdirilməsi barədə qərar qəbul etmişdir.

Hər bir azərbaycanlı üçün əziz olan Qarabağın incisi Şuşa şəhərinin noyabrın 8-də iyirmi səkkiz illik əsarətdən qurtarılması müharibənin taleyində həlledici rol oynamış, düşmənin siyasi-hərbi rəhbərliyinin məğlubiyyəti etiraf etməsinə və hərbi əməliyyatları dayandırmasına səbəb olmuşdur.

Şuşa şəhərinin və onun işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq, xalqımızın döyüş əzminin və qüdrətinin təntənəsinə çevrilən, dövlətimizin gələcək inkişafı və nüfuzu baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbə - Zəfər Günü hər il noyabrın 8-də təntənəli şəkildə qeyd ediləcəkdir.

## Rəcəb Tayyib Ərdoğan Bakıya gələcək



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakıya gələcək. Bu barədə diplomatik mənbələrdən məlumat verilib. Qeyd olunub ki, hazırda Rəcəb Tayyib Ərdoğanın Bakıya gəlməsi üçün hazırlıq işləri görülür. Səfərin önümüzdəki həftə ərzində baş tutacağı gözlənilir.

# Ceyhun Bayramov: “10 noyabr razılaşması Cənubi Qafqazda sülh və sabitliyi təmin edəcək”



***Həll edilməmiş münaqişələr sülh və sabitliyə təhdidlər yaradır. Buna görə də münaqişələr ikili standartlar tətbiq edilmədən Helsinki Yekun Aktının prinsipləri əsasında həll edilməlidir. SİA-nın məlumatına görə, bunu Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının iclasında deyib.***

C.Bayramov bildirib ki, noyabrın 10-da Azərbaycan və Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən imzalanan bəyanat 10 illiklərdən bəri davam edən Dağlıq Qarabağ münaqişəsinə son qoymuş oldu.Nazir bildirib ki, bu razılaşmanın yerinə yetirilməsi nəticəsində hərbi əməliyyatlara son qoyuldu və işğalda olan Ağdam, Kəlbəcər və Laçın rayonları Azərbaycana qaytarıldı. C.Bayramov vurğulayıb ki, razılaşmaya əsasən regionda nəqliyyat kommunikasiyaları açılacaq. Nazir bu razılaşmanın reallığa çevrilməsində göstərdiyi səylərə görə Türkiyə və Rusiyaya təşəkkürünü bildirərək qeyd edib ki, razılaşma Cənubi Qafqazda sülh və sabitliyi təmin edəcək.

## Mövlud Çavuşoğlu: “Münaqişəyə son qoymağa yönəlmiş bütün cəhdləri dəstəkləyirik”



Qarabağ üzrə razılaşma Ankara və Yerevan arasında münasibətlərə müsbət təsir edə bilər. SİA-Türkiyə KİV-lərinə istinadla xəbər verir ki, bu barədə Xarici İşlər naziri Mövlud Çavuşoğlu ATƏT-in Xarici İşlər Nazirləri Şurasının videokonfrans formasında keçirilən 27-ci iclasında çıxış edərkən deyib.

“Biz Qarabağda münaqişəyə Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaqla, beynəlxalq prinsiplər əsasında son qoymağa yönəlmiş bütün cəhdləri dəstəkləyirik. Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanan razılaşma 30 ildən sonra sülhün bərqərar olunması üçün real imkanlar yaradır. Bu, regional sabitliyə, həmçinin Türkiyə-Ermənistan münasibətlərinə müsbət təsir göstərə bilər”, - deyə Mövlud Çavuşoğlu bildirib.



## Müdafiə naziri Rusiya sülhməramlı qüvvələrinin komandanı ilə görüşüb

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşdirilən Rusiya sülhməramlı qüvvələrinin komandanı general-leytenant Rüstəm Muradov ilə görüşüb. Nazirlikdən SİA-ya verilən məlumata görə, görüşdə Azərbaycan, Rusiya Prezidentləri və Ermənistanın baş nazirinin birgə Bəyanatının müddəalarının icrası məsələləri müzakirə olunub.

# İqtidarın siyasi dialoq təşəbbüsləri davam edir



Azərbaycanda iqtidar-müxalifət dialoqunun inkişafı Prezident İlham Əliyevin dövlətçilik siyasətinin prinsipial istiqamətlərindəndir. Təqdirəlayiq haldır ki, ölkədə yeni siyasi konfiqurasiyanın formalaşmasında müxalifət partiyaları yaxından iştirak edirlər. Sözügedən hal bilavasitə demokratik münasibətlərin təzahürüdür. Məlumat verildiyi kimi, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin mütəmadi şəkildə partiya rəhbərləri və ictimai fəallar ilə görüşləri təşkil olunur.

AZƏRTAC xəbər verir ki, bu səpkidə növbəti görüşlər ayrı-ayrılıqda videokonfrans formatında dekabrın 2-də Milli Məclisin deputatları - Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev, həmçinin Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə və Milli Vəhdət Partiyasının sədri Yunus Oğuz ilə keçirilib.

Görüşlərdə Vətən müharibəsində qazanılmış böyük Qələbə, Ordumuzun şücaəti, Azərbaycanın keyfiyyət etibarilə yeni inkişaf mərhələsinə keçməsi, siyasi həmrəylik istiqamətində əldə olunmuş uğurların qorunması, COVID-19 pandemiyası ilə mübarizədə vətəndaşların fəallığı, VI çağırış Milli Məclisin fəaliyyəti, “Siyasi partiyalar haqqında” Qanunun yeni layihəsi və bir sıra digər önəmli mövzular müzakirə edilib.

Vətən müharibəsi ətrafında fikir mübadiləsi aparılaraq bildirilib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu, əslində, dünyaya yeni hərbi strategiya nümayiş etdirib. Əminliklə vurğulanıb ki, Azərbaycanın sözügedən təcrübəsi bir çox ölkələr tərəfindən öyrəniləcək. Belə ki, cəmi 44 gün davam edən müharibə, əslində, fərqli hərbi strategiyaların savaşı idi. Görüş zamanı xüsusi olaraq qeyd edilib ki, müharibədən sonrakı dövrdə aparılacaq sərt informasiya müharibəsində də siyasi həmrəyliyin nümayişi olduqca vacibdir. Odur ki, siyasi partiyaların birliyinin və qarşılıqlı dəstək mühitinin qorunması strateji vəzifədir. Administrasiyanın rəsmisi mövzunu inkişaf etdirərək, təşkil olunan görüşlər zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 1 dekabr tarixli Qələbə nitqinə müraciət edərək sözügedən çıxışdan sitat gətirib: “Bizim qələbəmiz tarixi Qələbədir. Biz bir neçə rayonu döyüş meydanında düşməndən azad etdik, üç rayonu düşməni məcbur edərək qaytardıq və beləliklə, Dağlıq Qarabağ münaqişəsini həll etdik. İndi artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur”.

Prezidentin bu sözlərini, əslində, ölkəmizi mahiyyət və keyfiyyət etibarilə yeni inkişaf mərhələsinə çıxardığını vurğulayan Ə.Vəliyev Azərbaycan cəmiyyətinin bundan sonra da aparılacaq islahatlara hazır olmasının vacibliyini bildirib.

“Vətən müharibəsində əldə olunmuş Qələbə, eyni zamanda, Azərbaycanda 1 milyondan çox qaçqın və məcburi köçkün probleminin həlli deməkdir. Odur ki, sözün əsl mənasında, Azərbaycanı yaxın gələcəkdə böyük quruluş işləri gözləyir”, - deyən Administrasiya rəsmisi sözügedən istiqamətdə də əməkdaşlığın önəmli olduğunu bildirib.

Adıçəkilən görüşlər əsnasında Qələbənin, eyni zamanda, şəhidlərin qanı hesabına əldə olunduğunu qeyd edən Ə.Vəliyev vurğulayıb ki, düşmənin mülki əhalini atəşə tutmasını da unutmaq olmaz və bu kimi faktları beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq prinsipial vəzifədir. Bunu əsas tutaraq bütün görüşlərdə Vətənin şəhid olmuş övladlarına Allahdan rəhmət, ailələrinə və yaxınlarına səbir, yaralılara isə şəfa dilənilib.

Ölkədə başlamış islahatların səmərəliliyi mütləq müvafiq qanunvericilik bazası ilə dəstəklənməlidir. Bu mənada Milli Məclisin rolunu vurğulayan Ə.Vəliyev islahatların ruhuna və demokratik dəyərlərin inkişafına dəstək olacaq yeni qanun layihələrinə böyük ehtiyac olduğunu bildirib. Odur ki, çeviklik, müasirlik və innovativlik kimi keyfiyyətlər müasir Milli Məclisin əsas xüsusiyyətlərinə çevrilməlidir.

Həmçinin görüşlərdə bütün dünyanı narahat edən COVID-19 pandemiyası və müşahidə olunan tendensiyalar müzakirə edilib. Ölkəmizdə koronavirusa yoluxma sayı Prezidentin rəhbərliyi ilə qəbul edilmiş qərarlar nəticəsində mümkün qədər minimal səviyyədə saxlanılıb. Bundan əlavə, dövlətimizin başçısının göstərişi ilə modul tipli yeni xəstəxanaların, həmçinin tibbi maska və dezinfeksiya vasitələri istehsal edən müəssisələrin istifadəyə verilməsi, zəruri tibbi avadanlıqların Azərbaycana gətirilməsi, xaricdən həkim-mütəxəssislərin ölkəmizə dəvət edilməsi pandemiya ilə mübarizəyə müsbət təsir göstərib.

Görüşlər zamanı siyasi partiyaların fəaliyyəti haqqında fikir mübadiləsi də aparılıb. Qeyd olunub ki, siyasi partiyaların fəallığı Azərbaycanda vətəndaş cəmiyyətinin əsaslarının inkişafı üçün zəmin yaradır. Bu səbəbdən də dövlət tərəfindən siyasi partiyalara ayrılan diqqət məhz demokratiyanın inkişafa yönəlmiş sərmayə kimi dəyərləndirilməlidir.

Partiya sədrləri Fazil Mustafa, Qüdrət Həsənquliyev, Arzuxan Əlizadə və Yunus Oğuz çıxış edərək dövlətimizin başçısı İlham Əliyevin Azərbaycanda “Anım Günü”, “Zəfər Günü”, həmçinin Vətən müharibəsində Qələbə ilə bağlı müvafiq orden və medalların təsis olunmasına dair sərəncamlarını yüksək qiymətləndirib, bu addımların ölkəmizdə milli birliyin inkişafına əvəzsiz töhfə olacağına əminliklərini bildiriblər.

Görüşə görə təşəkkürlərini bildirən partiya sədrləri dövlətçiliyimizin, iqtidar-müxalifət arasında dialoqun və yeni siyasi konfiqurasiyanın inkişafına hər zaman dəstək olacaqlarını vurğulayıblar.

# Zəfər Günün mübarək, Azərbaycan!

## Ali Baş Komandan, Prezident İlham Əliyevin Sərəncamı: “Zəfər Günü hər il noyabrın 8-də təntənəli şəkildə qeyd ediləcəkdir”

***Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məlumatına görə, Ermənistanın ardıcıl təxribatları və hərbi təcavüzünə cavab olaraq 2020-ci il sentyabrın 27-də Azərbaycan xalqı Ermənistanın otuz ilə yaxın davam edən işğalçılıq siyasətinə son qoymaq və torpaqlarımızı düşmən tapdağından azad etmək uğrunda Vətən müharibəsinə qalxmışdır. 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan xalqı tarixi qələbə qazanmış, ölkəmizin ərazi bütövlüyü bərpa olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında” 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən Vətən müharibəsində misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 10-nun Azərbaycanda Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi qərara alınmışdır.***



Bununla yanaşı, noyabrın 10-u Türkiyə Cümhuriyyətinin qurucusu, adı türk dünyasının tarixinə qızıl hərflərlə həkk olunmuş böyük şəxsiyyət Mustafa Kamal Atatürkün anım günüdür. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev demişdir: “Mustafa Kamal Atatürk sizin üçün nə qədər əziz və hörmətli olubsa, o qədər də azərbaycanlılar üçün əziz və hörmətlidir”. Azərbaycanı ürəkdən sevən, “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir” deyən Mustafa Kamal Atatürk hər bir azərbaycanlının qəlbində özünə yer etmişdir, onun xatirəsi ölkəmizdə də böyük ehtiramla yad olunur.

Noyabrın 10-nun Türkiyədə Mustafa Kamal Atatürkün anım günü olduğunu nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Zəfər Gününün tarixinin dəyişdirilməsi barədə qərar qəbul etmişdir.

Hər bir azərbaycanlı üçün əziz olan Qarabağın incisi Şuşa şəhərinin noyabrın 8-də iyirmi səkkiz illik əsarətdən qurtarılması müharibənin taleyində həlledici rol oynamış, düşmənin siyasi-hərbi rəhbərliyinin məğlubiyyəti etiraf etməsinə və hərbi əməliyyatları dayandırmasına səbəb olmuşdur. Şuşa şəhərinin və onun işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq, xalqımızın döyüş əzminin və qüdrətinin təntənəsinə çevrilən, dövlətimizin gələcək inkişafı və nüfuzu baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbə - Zəfər Günü hər il noyabrın 8-də təntənəli şəkildə qeyd ediləcəkdir.

### Azərbaycanda Anım Günü təsis edilib

Ali Baş Komandan, Prezident İlham Əliyev Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən hər il sentyabrın 27-si Anım Günü kimi qeyd olunacaq.

Sərəncamda deyilir: “Ermənistanın Azərbaycana qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqının işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başladığı qeyd olunur.

Haqq və Şərəf işimiz olan, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirmişdir. Azərbaycan Ordusunun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətmişdir.

Həmvətənlərimizin bir çoxu şəhid olmuş, itkin düşmüş, yaralanaraq sağlamlığını itirmişdir. Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilmişdir. Müzəffər Ordumuzun bu gün yazdığı tarix sabah daha da güclü inkişaf edəcək, çiçəklənəcək Azərbaycan üçün möhkəm bünövrədir. Bu, eyni zamanda, regionda dayanıqlı və uzunmüddətli sülhü, əmin-amanlığı və təhlükəsizliyi təmin edən mühüm amildir.

Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qərara alıram:

1. Hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin”.

### Bütün şəhidlərimizin xatirəsi bizim ürəyimizdə yaşayır və əbədi yaşayacaq

Bəli bu gün Azərbaycan Ordusu gücünü bir daha nümayiş etdirdi. 30 illik erməni işğalına məhz güclü ordumuz sayəsində son qoyuldu. Xalqımızın və Ali Baş Komandanın rəhbərliyi ilə bu gün yeni bir tarix yazıldı. Dövlət başçımız, Ali Baş Komandan İlham Əliyev 17 illik Prezidentlik fəaliyyətində ancaq və ancaq düşmən tapdağında olan torpaqlarımızın azad edilməsi ilə bağlı yüksək tribunalarda, verdiyi müsahibələrində qətiyyətlə çıxışları, söylədiyi hər söz, hər kəlməsi, Güclü Ordumuzun, Reşadətli əsgərlərimizin və nəhayət, dövlət başçımızla xalqımızın bir olmağımız 30 illik həsrətimizə son qoyuldu!. Güclü Azərbaycan Ordusu və məğrur və rəşadətli əsgərlərimiz Ali Baş Komandanın əmrlərini yerinə yetirərək Azərbaycanımızın şanlı tarixini yazdı.

Ali Baş Komandanımızın dediyi kimi, bu o əsgərlərimizdir ki, düşmənləri 30 il işğal altında saxladıqları torpaqlapımızdan iti qovan kimi qovurlar: “Azərbaycan özü bu məsələni həll edir və mən 27 sentyabr hadisələrindən əvvəl Ermənistana demişdim, gəl, təkbətək vuruşaq. Baxaq kim-kimdir! İndi nə oldu? Paşinyan hər gün bir dünya liderinə zəng edir. Hər gün! Mən heç kimə zəng etməmişəm, heç bir liderə zəng etməmişəm. Təmaslarım olub, mənə zəng ediblər. Amma o, adam qalmayıb ki, zəng etməsin, yalvarmasın, emissar göndərməsin, ağlamasın, onların ayağına yıxılmasın. Bax budur bunun sonu. Əgər bizimlə normal dildə danışsaydı, bizim müqəddəs şəhərimizi mund2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür arlamasaydı, əlbəttə, biz ümidlərlə yaşayıb çalışardıq ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun. Amma hər addım təxribat, hər addım təhqir və hesab edir ki, biz bununla barışacağıq?! İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!”.

Budur, Azərbaycan xalqının, əsgərinin əzmi, rəhbərinə, xalqına, torpağına, Vətəninə sadiqliyi. Təcavüzkar və işğalçı Ermənistan gördü ki, xalq-iqtidar-ordu birliyinin nümunəsi QƏLƏBƏDİR! Həmçinin, bu vəhdətin nümunəsi qədirbilən xalqımızın öz Prezidentinin, Ali Baş Komandanının yanında olması, Onun hər sözünə, bütün qərarlarına sadiqliyidir. Məhz bu gün düşmən ordusu Azərbaycan əsgərinin qabağında aciz qalaraq döyüş meydanından qaçmağa məcbur olur. Çünki yalançı, faşist, qorxaq, rəzil Paşinyanın bu iki ildən yuxarı hakimiyyətdə olduğu müddətdə Ermənistanı və erməni xalqını məhvə aparır. Bunu nəinki erməni xalqı, bütün dünya gördü və görür.

### “Bizim qabağımızda Ermənistan diz çöküb. Bizim şəhidlərimizin ruhu qarşısında biz onları diz çökdürmüşük”

Azərbaycan Prezidenti İlham Əliyev cənablarının dediyi kimi, “nə qədər gec deyilsə, düz yola gəl” və məsələnin sülh yolu ilə həllində verilən axırıncı şansdan istifadə et. Prezident İlham Əliyev oktyabrın 9-da Azərbaycan xalqına müraciətdə də bildirdi ki, Ermənistana axırıncı şans veririk, axırıncı şans: “Bizim qabağımızda Ermənistan acizdir. Bizim qabağımızda Ermənistan diz çöküb. Bizim şəhidlərimizin ruhu qarşısında biz onları diz çökdürmüşük. Şəhidlərimizin qanı yerdə qalmayıb. Mən dəfələrlə şəhid ailələrinin nümayəndələri ilə, şəhid valideynləri ilə görüşlərdə demişdim ki, biz onların qisasını alacağıq. Bizim şəhidlərimizin qanı yerdə qalmayacaq və qalmır. Biz qan istəmirik. Biz istəyirik torpaqlarımız bizə verilsin. Verilsin, uzatmasınlar məsələni. Status-kvo deyilən məsələ yoxdur, qurtardı getdi. Status-kvo belə olmalıdır, elə olmalıdır. Mən dəyişdirdim status-kvonu, dəyişdirdim! Bax, orada, döyüş meydanında. Yoxdur status-kvo. Təmas xətti, yoxdur təmas xətti. Yarmışıq onu. Onlar 30 il idi ki, qururdular bu təmas xəttini. Özü də o bölgənin relyefi təbii istehkamdır. Biz aşağıdan yuxarı gedirik. Özü də 30 il ərzində orada beton istehkamlar qurulub.

Ardı Səh. 5

# Zəfər Günün mübarək, Azərbaycan!

## Ali Baş Komandan, Prezident İlham Əliyevin Sərəncamı: “Zəfər Günü hər il noyabrın 8-də təntənəli şəkildə qeyd ediləcəkdir”



Əvvəli Səh. 4

Yarıb keçmişik. Azərbaycan əsgərinin qabağında heç kim heç nə edə bilməz. Biz bu gün o təmas xəttini darmadağın etdik. Yoxdur təmas xətti. İndi deyirlər yeni təmas xətti olacaq. Olmayacaq! Biz torpaqlarımızı geri alacağıq!”.

Bəli, aldıq! 30 il arzusunda olduğumuz Qarabağ həsrətə 8 noyabr, 2020-ci il Şuşanın azad olunduğu və onun ardınca 10 noyabrda son qoyulduğu gün aldıq! 8 noyabr - 10 noyabr tarixi günləri xalqımıza yaşadan Azərbaycan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev, Şanlı Azərbaycan Ordusu, Rəşadətli əsgər və zabitlərimiz bəxş etdi. Yaşa Prezidentimiz! Yaşa Güclü Ordumuz! Yaşa Rəşadətli əsgər və zabitlərimiz!.

### 8 noyabr - Şanlı Qələbəmizin, Zəfərimizin günü!

2020-ci il, 8 noyabr. Azərbaycan tarixində ən böyük qələbə. 28 ildir ki, Şuşalıların gözlərində olan kədər bu tarixi gün sevinc yaşları ilə əvəzləndi...Bu göz yaşlarını tək şuşalılar yox, bütün türk dünyası, regionlarımızın rayon və şəhərlərinin sakinləri yaşadı. 1992-ci il 8 may - 2020-ci il 8 noyabr. İşğal və Qələbə. Bir faktı vurğulamaq lazımdır ki, tarix qalibləri mühakimə etmir, həm də bu qalib haqq işi uğrunda qələbə qazanırsa! Bəli 8 noyabrda Ali Baş Komandanımızın, Müzəffər Ordumuzun və Rəşadətli əsgər və zabitlərimizin şücəati ilə 8 noyabrda göz bəbəyimiz Şuşamız işğaldan azad olundu. Üçrəngli Bayrağımız artıq Şuşamızda dalğalanmaqdadır.

### Ata vəsiyyəti-oğul hesabatı

“Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur” deyən Ulu Öndər Heydər Əliyevin bu arzusunu bu gün Prezident İlham Əliyev “Şuşasız işimiz yarımçıq qalar” deyərək reallaşdırır. Onun siyasətinin layiqli davamçısı, Azərbaycan xalqının mərd oğlu İlham Əliyev bu gün torpaqlarımızı azad edir. “Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!”.

Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciətində Şuşanın işğaldan azad edilməsinin tarixi əhəmiyyətindən danışarkən deyib: “Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyfislənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!”.

Ölkə rəhbərimiz, Ali baş Komandanımız İlham Əliyev xalqa müraciətdə bu böyük Qələbəni xalqına bəyan etməkdən böyük fəxarət və qürur hissi duyduğunu deyib: “Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox”.

Budur, Azərbaycan Prezidenti, Ali Baş Komandanımızın diplomatik siyasəti! Budur, xalqının Prezidenti olmaq! Budur, Liderlik missiyası!



Bəli, bu gün Ali Baş Komandanımız, Prezident İlham Əliyev bu tarixi qələbəni bir daha əbədiləşdirdi - Hər il 8 noyabr Zəfər Günü kimi təntənəli qeyd olunacaq. Zəfər Günün mübarək, Azərbaycan!. Qarabağ Azərbaycandır!

**RƏFİQƏ KAMALQIZI**

# Müdafiə Nazirliyi itkilərimizi açıqladı



Ermənistanın 27 sentyabr 2020-ci ildə ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarımızın işğaldan azad edilməsi məqsədilə Vətən müharibəsinə başlamışdır. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti Vətən müharibəsində qəhrəmancasına və şücaətlə döyüşərək Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr endirmiş, illər ərzində Ermənistanın işğal altındakı torpaqlarımızda qurduğu mürəkkəb konstruksiyalı mühəndis-istehkam və bunker sistemlərini darmadağın etmiş, bir neçə eşelondan ibarət və sıx şəkildə minalanmış müdafiə xətlərini yararaq torpaqlarımızı işğaldan azad etmişdir.

Rəşadətli və qorxmaz əsgər və zabitlərimiz əksər strateji yüksəkliklərin, əlverişli döyüş mövqelərinin Ermənistan silahlı qüvvələrinin əlində olması, Ermənistanın çoxsaylı artilleriya, yaylım atəşli reaktiv sistemləri və minaatan qurğularından ibarət sıx atəş zərbələri altında və çətin coğrafi relyef və iqlim şəraitində döyüş apararaq Ermənistanı məğlub etməyə müvəffəq olmuşdur. Qarabağın tacı olan Şuşa şəhərinin azad edilməsi dünya hərb tarixinə düşəcək unikal hərbi əməliyyatlardan biridir.

30 ilə yaxın həsrətində olduğumuz torpaqlarımız şəhidlərimizin qanı və canı bahasına işğaldan azad olunmuşdur. Döyüş əməliyyatı planlarının yüksək peşəkarlıqla hazırlanması, yüksək texnologiyaların tətbiqi, müxtəlif qoşun növlərinin fəaliyyətinin səmərəli əlaqələndirilməsi, havada mütləq üstünlüyün əldə edilməsi, ordumuzun manevr qabiliyyəti və digər taktiki və strateji üstünlükləri şəxsi heyətin sıralarında itkilərimizi əsaslı dərəcədə azaltmışdır. Amma müharibə itkisiz olmur.

Vətən müharibəsində Silahlı Qüvvələrimizin 2783 nəfər hərbi qulluqçusu həlak olmuşdur. Onların sırasında 103 nəfər hərbi qulluqçunun DNT analiz metodu ilə şəxsiyyətinin müəyyən edilməsi üzrə işlər davam etdirilir. 100 nəfərdən artıq hərbi qulluqçumuz isə itkin düşmüş hesab olunur. Onların tapılıb ailələrinə məlumat verilməsi üçün zəruri tədbirlər görülür. Hazırda 1245 nəfər hərbi qulluqçumuzun tibb müəssisələrində müalicəsi davam edir. Həlak olan hərbi qulluqçuların adları, təvəllüdü, rütbəsi və keçdiyi döyüş yolu barədə təfərrüatlı məlumatlar əlavə olaraq ölkə ictimaiyyətinə təqdim olunacaqdır. Aidiyyəti dövlət qurumlarının əməkdaşlarından ibarət komissiya bu istiqamətdə fəaliyyət göstərir. Allah bütün şəhidlərimizə rəhmət eləsin!. Şəhidlərimizin ruhu qarşısında baş əyirik!

# Gürcüstan MSK parlament seçkilərinin yekun nəticələrini açıqlayıb

Gürcüstanın Mərkəzi Seçki Komissiyası (MSK) oktyabrın 31-də ölkədə keçirilmiş parlament seçkiləri ilə bağlı yekun nəticələri elan edib. AZƏRTAC xəbər verir ki, MSK-nın son qərarına əsasən, hakim Gürcü Arzusu-Demokratik Gürcüstan partiyası seçkilərdə 48,22 faiz səs toplayıb.

Bununla da hakim partiya X çağırış Gürcüstan parlamentində proporsional sistem üzrə 60, majoritar sistem üzrə isə 30 olmaqla ümumilikdə 90 deputat mandatı əldə edib. Bu seçkilərdə mübarizə aparan 8 siyasi müxalifət partiyası isə ümumilikdə parlamentdə 60 yer qazanıb. Onların da sırasında ən çox yeri Vahid Milli Hərəkat-Güc Birlikdədir bloku qazanıb - 36 mandat.



# Səməd Seyidov: Dünya ictimaiyyətinin Azərbaycanın yaratdığı yeni reallığı qəbul etməsi mütləq zərurətə çevrilib



Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa son müraciətində dünya ictimaiyyətinin Azərbaycanın yaratdığı yeni reallığı qəbul etməsi ilə bağlı fikirlər söylədi. Biz bunun təzahürlərini konkret olaraq beynəlxalq münasibətlərdə görürük. Kimlərinsə xoşuna gəlməsə və buna görə də hansısa cəhdlər göstərilsə belə, bu reallığı nəzərə alıb qəbul etmək artıq mütləq zərurətə çevrilib.

Bu fikirləri AZƏRTAC-a Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov deyib. Səməd Seyidov bildirib ki, bir neçə gün bundan əvvəl Fransa parlamentinin yuxarı palatası - Senat çox qərəzli, lüzumsuz və heç bir reallığı əks etdirməyən sənəd qəbul etdi. Bu sənədin qəbul edilməsi əslində Fransanın üçün böyük problemlər yaradır, nəinki Azərbaycan üçün. Çünki Azərbaycanın yaratdığı reallığı dəyişdirmək mümkün deyil. Fransa Senatı ancaq kapitulyasiyaya uğramış “bacısını” qoruyub saxlamaq, qondarma rejimə hər hansı formada dəstək vermək üçün öz milli maraqlarının üstündən xətt çəkərək belə bir qərar verdi.

Fransaya yaxın ölkələrdən biri olan Belçikanın parlamentində də oktyabrın əvvəlində bənzər layihə təqdim edilmişdi. O layihə də Fransa Senatının qətnaməsindən fərqlənmirdi. Ancaq müəyyən müddət keçəndən sonra müzakirələr zamanı bu layihə Belçika parlamentinin beynəlxalq əlaqələr komitəsi tərəfindən kənarlaşdırılmışdı. Onda ermənipərəst qüvvələr komitəyə ikinci layihəni təqdim etdilər. Bu layihə də əvvəlkindən ciddi şəkildə fərqlənməyən və Fransa Senatının sənədinə uyğun gələn bir layihə idi. Bu ikinci layihə də qəbul olunmadı. Nəhayət, dekabrın 2-də Belçika parlamentinin beynəlxalq əlaqələr komitəsində yeni bir sənəd gündəmə gəldi. Düzdür, bu sənəddə də qərəzli fikirlər mövcuddur. Lakin bu sənəddə 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə istinad var. İkincisi, bu sənəddə Azərbaycana qarşı hər hansı sanksiyanın tətbiq olunması məsələsi gündəmdən çıxarılıb. Üçüncüsü, bu sənəddə qondarma rejimin tanınması, onunla əlaqələrin qurulması məsələsi yoxdur. Beləliklə, Belçika parlamentində Fransa Senatının qəbul etdiyi qətnaməyə bənzər bir sənəd başqa formada müzakirə edilir.

“Görünən odur ki, zaman keçdikcə beynəlxalq qanunu nəzərə almamaq mümkün deyil. Bu da Azərbaycan Prezidentinin apardığı uğurlu siyasətin konkret nəticələrindən biridir. Bu, onu göstərir ki, Azərbaycana qarşı nümayiş etdirilən qərəzli yanaşma getdikcə zəifləyəcək, gündəmdən silinəcək. Azərbaycan sərhəd toxunulmazlığını, ərazi bütövlüyünü möhkəmləndirmə prosesini yüksək səviyyədə təşkil etdikcə bu proses də geridönməz bir xarakter alacaq. Necə ki dünən Belçika parlamentinin komitəsində bu əlavələrin edilməsi qeyd edilən istiqamətdə bir siqnaldır”, - deyə Səməd Seyidov qeyd edib.

# Rus jurnalist: “Xankəndidə hər kəsin silahı var, sülhməramlılar isə...”



Rusiyanın RBK xəbər agentliyinin müxbiri Xankəndinə səfəri haqda danışıb və şoka düşdüyünü bildirib. SİA Rusiya mətbuatına istinadən xəbər verir ki, RBK-nın jurnalisti Sergey Atasuntsev “Moskvanın səsi” radiosunun efirində Xankəndidə ermənilər arasında özbaşınalığın davam etdiyindən danışıb. O bildirib ki, hazırda sülhməramlı kontingentin yerləşdiyi Xankəndidə ermənilər qeyri-qanuni silahlar əldə edərək şəhərdə sərbəst dolaşırlar: “Orada demək olar ki, hər kəsin müxtəlif cür silahı var. Kimdəsə qumbara, kimdəsə avtomat var. Xankəndidə yaşanan özbaşınalıqlar təhlükəli həddə çatıb”.

# Moldova mətbuatında erməni vandalizmindən bəhs edən məqalə yayılıb




***Azərbaycanın Moldovadakı səfiri Qüdsi Osmanovun “Allahın evinə necə əl qaldırmaq olar?” sərlövhəli məqaləsi Moldovanın nüfuzlu “Tribuna”, “Noi”, “İPN” və “Deschide” xəbər agentlikləri tərəfindən yayılıb.***

Məqalədə ermənilərin müharibə başa çatdıqdan sonra xristian kilsələri və abidələri mövzusunda isterikaya başladıqları, bütün gücləri ilə müxtəlif ölkələri və beynəlxalq təşkilatları azad edilmiş Azərbaycan torpaqlarında xristian abidələrinin məhv edilməsi məsələsinə inandırmağa çalışdıqları bildirilir.

Səfir məqaləsində ermənilərin bəhs etdikləri bütün tarixi və dini məbədlərin burada qədim zamanlardan bəri yaşamış albanlara məxsus olduğunu, ermənilərin bu ərazilərə 1828-ci ildən sonra Rusiya imperiyası tərəfindən köçürüldüyünü və Qafqazda tarixi kökləri olmayan ermənilərin burada yaşadıqlarına dair süni şəkildə izlər yaratmaq məqsədilə alban abidələrinin özününküləşdirilməsi və milli mənşəyinin dəyişdirilməsi yolunu seçdiklərini qeyd edir. O, tarixin saxtalaşdırılmasının əsl cinayət olduğunu vurğulayır.

Eyni zamanda, məqalədə Q.Osmanov alban məbədlərinin bir qisminin ermənilərin özləri tərəfindən dağıdıldığını qeyd edir, Prezident İlham Əliyevin Ağdam rayonuna səfəri zamanı Qərb siyasətçilərini bu barədə narahat olmamağa dair çağırışını xatırladaraq Azərbaycanda müxtəlif konfessiyaların, millətlərin nümayəndələrinin həmişə sülh və əmin-amanlıq şəraitində yaşadıqlarını bildirir. O, ölkəmizin ən tolerant ölkə kimi tanındığını, habelə Azərbaycana müasir dünyanın ən mədəni və savadlı liderlərindən birinin rəhbərlik etdiyini diqqətə çatdırır.

Məqaləsinin sonunda Q.Osmanov 30 il ərzində Azərbaycan rəhbərliyinin dəfələrlə dünya ictimaiyyətinə ermənilərin müsəlman məbədlərinə təcavüzünün dayandırılması çağırışı ilə müraciət etdiyini, bölgədəki 67 məsciddən 64-nün tamamilə dağıdılması və bunlardan üçündə donuz da daxil olmaqla mal-qaranın saxlanılmasına göz yumulduğunu, ermənilərin vandalizminin XXI əsrdə normal davranış olmadığını və beynəlxalq təşkilatların bu həqiqətə diqqət yetirmələrinin vacib olduğunu qeyd edir.

# Azərbaycan XİN: Ermənistan tərəfinin sərgilədiyi destruktiv mövqe bu ölkəni uçuruma sürükləyib



Ermənistan rəhbərliyindən fərqli olaraq, Azərbaycan Prezidenti imzaladığı hər bir sənədin nəinki indiki mərhələdə, hətta uzaq perspektivdə nəyə xidmət etdiyini çox yaxşı bilir. Bunu dövlət başçımız yalnız sözləri ilə deyil, konkret əməlləri ilə nümayiş etdirir. Xarici İşlər Nazirliyindən Trend-ə verilən məlumata görə, bu barədə Nazirlik Ermənistan xarici işlər naziri Ara Ayvazyanın "Armenpress" agentliyinə verdiyi müsahibəsinə dair şərhində bildirilib. Nazirlik qeyd edib ki, Ermənistan xarici işlər naziri, xəyal dünyasından nə qədər acı olsa da reallığa dönməlidir.

"Ermənistan tərəfinin uzun illər ərzində sərgilədiyi beynəlxalq hüquqa zidd və destruktiv mövqe bu ölkəni uçuruma sürükləyib. Ermənistan hökuməti son baş verən hadisələrdən nəticə çıxarmalı və bölgədə yaranmış yeni reallıqla barışmalıdır.

Azərbaycan BMT TŞ-nin müvafiq qətnamələrinin icrasını təmin etdi və ərazi bütövlüyünü bərpa etdi. 10 noyabrda Ermənistan hökumət başçısının da imzaladığı birgə bəyanatla bölgədə yeni təhlükəsizlik və əməkdaşlıq formatı yarandı.

Əsir və girovların, cəsədlərin dəyişdirilməsinə gəldikdə isə, Ermənistan xarici işlər nazirinə xatırladırıq ki, məhz Ermənistan tərəfi uzun illər ərzində Azərbaycanın "hamının hamıya" dəyişdirilməsi təşəbbüsünə qarşılıq vermirdi. İndi bu prinsipin Ermənistan tərəfindən qəbul edilməsi elə dəyişən reallığın bir hissəsidir. Azərbaycan isə hər zaman beynəlxalq humanitar hüquq prinsiplərinə ciddi riayət edib, humanizm prinsiplərindən çıxış edərək, hətta hərbi əməliyyatlar davam edən zaman birtərəfli qaydada erməni əsirlərini və cəsədləri qarşı tərəfə təhvil verib. Ermənistan tərəfinin 10 noyabr tarixli birgə bəyanatı yozmaq əvəzinə bu razılaşmadan irəli gələn məsələləri yerinə yetirməsi bölgədə uzun illərdir gözlənilən sülhün yaranmasına xidmət edəcəkdi

# Azərbaycanlılar Haaqadakı Beynəlxalq Ədalət Məhkəməsi qarşısında Fransanın mövqeyinə etiraz aksiyası keçiriblər




***Niderlandın Haaqa şəhərində yerləşən Beynəlxalq Ədalət Məhkəməsinin qarşısında Fransa Senatında qondarma "Dağlıq Qarabağ respublikası"nın tanınmasına dair təklifin səsə qoyulmasına qarşı etiraz aksiyası keçirilib.***

AZƏRTAC xəbər verir ki, Niderlanda yaşayan Azərbaycan və türk icmalarının nümayəndələri Haaqadakı Beynəlxalq Ədalət Məhkəməsinin qarşısına toplaşaraq Avropa İttifaqının üzvü olan Fransanı ədalətli mövqe nümayiş etdirməyə çağırıblar.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun işğal altındakı ərazilərimizi erməni qəsbkarlarından azad etdiyi vurğulanıb.

"Fransa, Ermənistan terrorizmini dəstəkləməyi dayandır!", "Qarabağ Azərbaycanındır!" yazılan plakatlar, Azərbaycan və Türkiyə bayraqları ilə Beynəlxalq Ədalət Məhkəməsinin qarşısına toplaşanlar "Ədalətsizliyə son!", "Ədalət istəyirik!", "Qarabağ Azərbaycandır!", "Biz sülh istəyirik!", "Fransa, terrorizmi dəstəkləməyi dayandır!", "Fransa, təcavüzkarı dəstəkləməyi dayandır!", "Ermənistan təcavüzünə son!", "Xocalıya ədalət!", "Qarabağa ədalət!", "Fransa, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə riayət et!" kimi şüarları səsləndiriblər. Aksiya iştirakçıları bir neçə dildə çıxış edərək Qarabağda baş vermiş son hadisələr, eləcə də Azərbaycanın Gəncə, Bərdə və digər şəhərlərində Ermənistanın ballistik raketlərlə mülki əhalini hədəfə aldığını deyiblər. Nümayişçilər Fransanın ədalətsiz mövqeyinə etirazlarını bildiriblər.

# Bəhruz Quliyev: "Azərbaycan beynəlxalq səviyyədə daha bir ilkə imza atdı"



COVİD-19 dünyada indiyə kimi 1.3 milyondan artıq insanın ölümünə, 54 milyon insanın isə bu xəstəlikdən əziyyət çəkməsinə səbəb olub. Rəqəmlər hər gün artır. Bu qlobal bəla, böhran ilə mübarizədə Prezident İlham Əliyevin təşəbbüsü ilə çağırılmış BMT Baş Assambleyasının koronavirusa qarşı Xüsusi Sessiyası tarixi sessiyadır. Bu fikirləri Trend-ə açıqlamasında SƏS Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev deyib.

Siyasi ekspertin sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti tərəfindən koronavirusa qarşı regional və qlobal səviyyədə mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə əhəmiyyətli təşəbbüslər irəli sürülür və bu istiqamətlərdə əməli işlər görülür: "Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində könüllü ianənin ayrılması və 30-dan artıq dövlətə humanitar yardımın göstərilməsi məhz bu qlobal həmrəyliyin nümunəsi kimi dəyərləndirilməlidir. Prezidentin qətiyyətli, önləyici və qabaqlayıcı tədbirləri nəticəsində koronavirusa qarşı mübarizədə Azərbaycan uğur qazanıb, bu, dünya və Azərbaycan ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanıb. Dövlət başçısının çağırışı ilə vətəndaşlar, sahibkarlar, təşkilatlar səfərbər olunub, ehtiyacı olan insanlar yardımlarla təmin edilir. Dövlət tərəfindən sosial yardımlarla əlaqədar milyardlarla manat vəsait ayrılıb. Eyni zamanda Heydər Əliyev Fondu da bu istiqamətdə humanist təşəbbüslərlə çıxış edir, insanların ehtiyacları təmin olunur".

B.Quliyev bildirib ki, 2020-ci ildə koronavirus pandemiyası bütün dünyada vəziyyəti dəyişdi: "Pandemiya həmçinin beynəlxalq siyasətə, o cümlədən beynəlxalq tədbirlərin keçirilməsinə də təsirsiz ötüşmədi, bu sahədə böyük çətinliklər və maneələr yaratdı. Koronavirus pandemiyası qlobal xarakter daşımaqla bütün xalqların təhlükəsizliyini təhdidi edir. Təəssüf ki, bu günə qədər nə milli, nə də qlobal səviyyədə bu virusa qarşı mübarizədə səmərəli bir vasitə tapılmayıb. Bunun üçün isə dünyanın vaxt itirmədən yeni təşəbbüslərə ehtiyacı var. Çünki itirilən hər gün əslində insanların itirilməsi deməkdir. Bu insanlar isə sadə statistika deyil, kiminsə atası, yaxını, dostu, qardaşı, bacısı, yaxud doğmasıdır. Dünyada, o cümlədən ölkəmizdə tətbiq olunan karantin rejiminin qaydalarına əməl edilməlidir, özümüzü, ailəmizi və nəhayət, cəmiyyətimizi qorumalıyıq.

Prezident İlham Əliyevin rəhbərliyi və təşəbbüsləri ilə ölkəmiz bu vəziyyətə anında çevik və adekvat reaksiya verdi. Türk Şurasının və Qoşulmama Hərəkatının aprel və may aylarında dövlət və hökumət başçıları səviyyəsində onlayn zirvə toplantıları keçirildi. Türk Şurasının zirvə görüşü dövlət və hökumət başçıları səviyyəsində onlayn formatda keçirilmiş ilk tədbir oldu. Bununla da Azərbaycan beynəlxalq səviyyədə daha bir ilkə imza atdı".

Qurum rəhbəri əlavə edib ki, Xüsusi Sessiya beynəlxalq ictimaiyyətin pandemiyaya qarşı tam səfərbər olmasına şərait yaradacaq və bu qlobal təhdidə qarşı qlobal cavabın tapılmasına öz müsbət töhfəsini verəcək: "COVID-19 pandemiyasının davam etməsi bir daha onu göstərir ki, dünya ölkələrinin dövlət və hökumət başçıları səviyyəsində dünya parlamenti adlandırılan BMT Baş Assambleyasının koronavirusa qarşı xüsusi sessiyası çərçivəsində təcili və təxirə salınmadan bir araya gəlməsinə, dünyanı bürüyən koronavirus bəlasından çıxış yollarını müzakirə etməsinə və həll yollarının tapılmasına böyük ehtiyac və tələbat var. Bu gün Azərbaycanın BMT-ni idarə etmək təcrübəsi var. Belə bir təşəbbüsün irəli sürülməsi və dəstəklənməsinə nail olunması BMT-nin fəaliyyətinə dərindən bələd olan Azərbaycanın və onun siyasi rəhbərliyinin məntiqi, düşünülmüş addımı kimi qiymətləndirilməlidir. 2020-ci il ildə Azərbaycan Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə tarixi zəfər çaldı. Xüsusi Sessiyanın keçirilməsi Azərbaycan Prezidentinin 2020-ci ildə imza atdığı növbəti möhtəşəm qələbə oldu. Lakin bütün bunlara rəğmən dünya COVID-19-a qarşı mübarizədə qlobal həmrəyliyin vacibliyini vurğuladığı halda, Ermənistan qlobal xarakter daşıyan bu təşəbbüsə qarşı çıxış etməklə BMT sistemində və dünya dövlətləri arasında özünü rüsvay etdi".

## Bu gün Vətən müharibəsi şəhidlərinin xatirəsi yad ediləcək



Prezident İlham Əliyev Vətən müharibəsi şəhidlərinin xatirəsinin yad edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamla canlarını Azərbaycan Respublikasının ərazi bütövlüyü yolunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsini yad etmək məqsədilə qərara alınır:

- Azərbaycan Respublikasında Vətən müharibəsi şəhidlərinin xatirəsini yad etmək məqsədilə 2020-ci il dekabrın 4-də saat 12:00-da bir dəqiqəlik sükut elan edilsin.
- Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

# Məlahət İbrahimqızı: "Azərbaycanın gücü, potensialı bölgədə yeni reallıqlar yaradacaq"

"Laçın rayonu böyük strateji əhəmiyyətə malikdir. Bu baxımdan, rayonun işğaldan azad olunması tarixi hadisədir. Laçının azad edilməsi ilə Azərbaycanın ərazi bütövlüyünün bərpası prosesi başa çatdı". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin deputatı, YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı deyib.



Məlahət İbrahimqızı bildirib ki, Prezident İlham Əliyev hər zaman qətiyyətli, cəsarətli mövqe nümayiş etdirərək Azərbaycan xalqının milli maraqlarını daim müdafiə edib. 10 noyabr razılaşmasının müxtəlif variantları üzərində müzakirələrdə, ümumiyyətlə, danışıqlar prosesinin müxtəlif mərhələlərində Prezident İlham Əliyevin göstərdiyi prinsipiallıq və qətiyyət, milli maraqlarımızı cəsarətlə müdafiə etməsi, böyük diplomatik məharəti, dəqiq, məqsədyönlü, ardıcıl siyasət aparması qazanılmış tarixi qələbənin məntiqi nəticəsidir.

Millət vəkilinin fikrincə, Azərbaycanın gücü, potensialı və strateji yanaşması bölgədə yeni reallıq yaradacaq. Güclü və böyük iqtisadi potensiala malik Azərbaycanın işğaldan azad edilmiş ərazilərin sürətli inkişafına nail olacaq, bu bölgələrin ən qabaqcıl standartlara uyğun yenidən bərpa ediləcəyi, oarada yaşayan əhalinin rifahı üçün bütün addımlar atılacaq və bütün bunlar həmin regionda yaşayan bütün insanlar, o cümlədən Dağlıq Qarabağda yaşayan ermənilər üçün yeni perspektivlər açacaq.

Müharibədə məğlub olan Ermənistanın beynəlxalq münasibətlər sistemində subyekt deyil, obyekt olduğunu deyən M.İbrahimqızının sözlərinə görə, erməni tərəfinin bu vəziyyətə düşməsi Azərbaycana qarşı işğalçılıq siyasətinin nəticəsidir. Əgər bu ölkə zamanında Azərbaycanın çağırışlarına əməl edib işğalçılıq siyasətinə son qoysaydı, regionda həyata keçirilən qlobal əhəmiyyətli enerji və nəqliyyat layihələrinin iştirakçısı ola bilərdi. Prezident İlham Əliyev dekabrın 1-də Azərbaycan xalqına müraciəti zamanı bu məsələlərlə bağlı fikirlərini ətraflı şəkildə ifadə etdi.

Deputat qeyd edib ki, hazırda noyabrın 10-da imzalanmış bəyanatın müddəaları ardıcıl şəkildə icra edilir: "Razılaşmalara əsasən atəşkəs təmin edilib, üç rayon Azərbaycana qaytarılıb, Rusiya sülhməramlıları bölgədə yerləşdirilib, atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz (Türkiyə-Rusiya mərkəzi) yaradılmaqdadır. Növbəti 3 il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi təmin olunacaq. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi davam edir. Eyni zamanda, BMT-nin nəzarəti altında məcburi köçkünlər, o cümlədən də azərbaycanlılar Dağlıq Qarabağın bütün yerlərinə qayıdacaqlar. Azərbaycanın qərb rayonları və Naxçıvan MR arasında nəqliyyat əlaqəsi yaradılacaq. Bir məqamı qeyd etmək istəyirəm ki, Naxçıvana quru dəhlizin açılması mühüm tarixi nailiyyətdir. Məhz Azərbaycan Prezidentinin təkidi ilə əvvəllər nəzərdə tutulmayan Azərbaycanın qərb rayonları və Naxçıvan MR arasında nəqliyyat əlaqəsi yaradılacaq. Bununla da Naxçıvan həm blokadadan çıxarılır, eyni zamanda, yeni nəqliyyat damarı yaradılır. Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvanla, həmçinin Türkiyə ilə birləşir. Belə bir yeni nəqliyyat dəhlizinin yaradılması regionda yeni əməkdaşlıq imkanları yaradacaq".

M.İbrahimqızı bildirib ki, dövlət başçısının müvafiq sərənsamları ilə ölkəmizdə hər il 27 sentyabr Anım Günü, 8 noyabr isə Zəfər Günü kimi qeyd olunacaq: "Bu təqvimlər tariximizdə əbədi yaşayacaq".

# Prezidentə məktublar: Cənab Prezident, qazandığımız Qələbənin baş memarı Sizsiniz. Uca Tanrı Sizi qorusun!



***Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə məktublar gəlməyə davam edir. SİA məktublardan bir neçəsini təqdim edir:***

Aleksandr Oreşnikovdan, Krasnoyarsk, Rusiya

**"Hörmətli cənab Prezident İlham Heydər oğlu.**

Mən əsgərliyimi Azərbaycanda başa vurmuşam. 1987-1989-cu illərdə indiki Gəncə, o vaxtkı Kirovabad şəhərində yerləşən 104-cü qvardiyanın hava-desant diviziyasında xidmət etmişəm. Dağlıq Qarabağda baş verən faciələrin birbaşa şahidi və iştirakçısı idim. O vaxt xalqınızın yaşadığı iztirabları böyük ürək ağrısı ilə qəbul edirdim. 1993-cü ildə Ağdamın işğalını şəxsi bir faciə kimi qəbul etdim, çünki bu şəhərə çox bağlı idim və əziz xatirələrim var idi.

Sizi və çoxmillətli xalqınızı Qələbə münasibətilə təbrik edirəm! Nəhayət, ədalət zəfər çaldı. Mən buna ürəkdən sevinirəm və səmimi qəlbdən Sizin fəaliyyətinizin Dağlıq Qarabağa bölgəsinə sülh və firavanlıq gətirəcəyini inanıram. Sizə və xalqınıza əmin-amanlıq, başınızın üstündə açıq səma arzulayıram!".

Asman Hüseynovdan, Yaroslavl, Rusiya

**"Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan.**

Sizi və Azərbaycan xalqını Qarabağın azad olunmasında qazandığınız möhtəşəm Qələbə münasibətilə Rusiyanın Yaroslavl vilayətindəki Azərbaycan icmasının üzvləri adından və öz adımdan təbrik edir, həmçinin Sizə və müzəffər Ordumuza təşəkkürlərimizi bildiririk. Sizin, rəşadətli Ordumuzun və xalqımızın birliyi sayəsində yüz minlərlə məcburi köçkün öz doğma yurdyuvasına qayıdacaq.

"Yaroslavl Azərbaycanlıları Milli Mədəni Muxtariyyəti" regional ictimai təşkilatı 2011-ci il dekabrın 24-də "Azərbaycan mədəniyyət və təhsil mərkəzi" yaratdı. Bu mərkəzin nəzdində müxtəlif bölmələr (Heydər Əliyev Muzeyi, kitabxana, milli çay evi və s.) fəaliyyət göstərir. Mərkəzimiz öz fəaliyyəti ilə Azərbaycan həqiqətlərini yaymağa və milli-mədəni dəyərlərimizi nümayiş etdirməyə xidmət edir.

Biz Sizin yürütdüyünüz xarici və daxili siyasəti dəstəkləyir və həmyerlilərimiz arasında geniş təbliğat işləri aparmaqla onları da bu siyasəti dəstəkləməyə sövq edirik. Bizim əsas fəaliyyətimiz ümummilli liderimiz Heydər Əliyevin möhtəşəm irsinin və onun dönməz davamçısı İlham Əliyevin ideyalarının təbliğatı ilə bağlıdır.

Cənab Prezident, biz Sizinlə fəxr edirik və əmin edirik ki, Yaroslavlda yaşayan azərbaycanlılar Sizi və siyasi kursunuzu daim dəstəkləyəcəklər".

Üzeyir Tapdıqlıdan, Antalya, Türkiyə

**"Hörmətli cənab Prezident.**

Bu məktubu yazaraq Sizə hər şey üçün dərin təşəkkürümü bildirirəm. Öncə ölkəmizi inkişaf etdirdiniz, kadr islahatları apardınız, sonra isə bütün xalqımızın həsrətində olduğu Qarabağı azad etdiniz.

Mən Antalyada yaşayıram, ürək-damar cərrahlığı sahəsində həkim işləyirəm. İmkan olduqca, vaxt tapdıqca ölkəmizdə baş verənləri izləyirəm.

Təbii ki, xalq üçün gördüyünüz işlər sadəcə bu günlər baş verənlərlə kifayətlənmir. Xalqın xeyrinə yüzlərlə önəmli işləriniz olub və yenə olacağına əminəm. Hər şey üçün Sizə təşəkkürlərimi bildirirəm.

Bütün Azərbaycan xalqı Sizin arxanızdadır, bundan əmin ola bilərsiniz. Sizi çox sevirik. Ürəyimdəki sözləri, hissləri bir məktuba yerləşdirmək mümkün deyil, İnşallah, nə vaxtsa Sizinlə görüşmək qismət olarsa, ən səmimi təşəkkürlərimi Sizə çatdıraram".

Kərim Yaqubovdan, Ağdam, Azərbaycan

**Hörmətli cənab Prezident.**

Mən və ailəm 27 ildən artıqdır ki, öz doğma kəndimiz - İlxıçı kəndindən uzaq düşmüşük. Şükür Allaha ki, sayənizdə Qarabağ torpağımız, Ağdamımız Sizin komandanlığınız altında rəşadətli və müzəffər Ordumuz tərəfindən yağı düşməndən azad olundu.

Aztəminatlı ailənin üzvü olduğum üçün özünüməşğulluq proqramı çərçivəsində dövlət tərəfindən mənə verilmiş xırdabuynuzlu heyvanları işğaldan azad olunmuş doğma kəndimizdə saxlayıb artıracağam. Torpaqlarımızın azad olunması münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Allah Sizi və ailənizi qorusun!

Rasim Əliyevdən, Kəlbəcər, Azərbaycan

**"Çox hörmətli cənab Prezident.**

Çox çətin missiyanın öhdəsindən gələrək əzəli Qarabağ torpaqlarımızı erməni təcavüzkarlarından azad etdiniz, mənliyimizi, qürurumuzu özümüzə qaytardınız. Bununla düşmən bir daha qarşısında heç vaxt ərazilərinin işğalı ilə barışmayan güclü xalq gördü. Bu günün sevincini bizə yaşatdığınız üçün ailəm adından və şəxsən öz adımdan Sizə dərin təşəkkürümü bildirirəm. Uca Tanrıdan Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Zəfərimiz mübarək olsun!".

Etibar Bababəylidən, Naxçıvan, Azərbaycan

**"Cənab Prezident, Müzəffər Ali Baş Komandan!**

Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-dən keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində ard-arda rayonlarımızın düşmən tapdağından azad edilməsi Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi Sizin müdrik rəhbərliyinizin nəticəsidir. Sizi və müzəffər Azərbaycan Ordusunu Qarabağın azad olunması münasibətilə təbrik edirəm. Mən Sizinlə və şanlı Ordumuzla fəxr edirəm və qürur duyuram. Ulu öndərimiz Heydər Əliyevin siyasi kursuna sadiq qalaraq və onun vəsiyyətinə əməl edərək işğal altındakı torpaqlarımızı, xüsusilə də Şuşa şəhərini işğaldan azad etdiniz.

Əziz Prezidentimiz, Siz Şuşanın azad edilməsi xəbərini Şəhidlər xiyabanından xalqa çatdırmaqla mənəvi dəyərlərimizə sadiq, vətənpərvər, qeyrətli Azərbaycan oğlu olduğunuzu bir daha təsdiq etdiniz. 1990-cı ildə Nehrəm kənd ağsaqqallarının ulu öndərimiz Heydər Əliyevə Qarabağın düzgün həll variantı haqqında verdikləri sualın cavabı onun vəsiyyətinə və arzusuna tam uyğundur. Son 200 ildə dəfələrlə basılan, qarış-qarış yonulan Azərbaycan torpaqlarının bütövləşməsi, türk dünyası ilə pozulmuş coğrafi ərazilərin bərpa olunması Sizin məqsədyönlü, doğru siyasətinizin nəticəsidir. Naxçıvanla Azərbaycan, Türkiyə ilə Azərbaycan və Azərbaycan üzərindən Türkiyə-Rusiya-dünya ölkələri quru yolunun açılmasını həmişə xəyal etmişik. Bu gün bu gerçəkdir, həqiqətdir, tarixi sənətdir!

Güclü və iradəli Prezident, Müzəffər Ali Baş Komandan, bu möhtəşəm hadisə ilə bağlı Siz başda olmaqla bütün xalqımızı təbrik edir və 9 Noyabr Dövlət Bayrağı günü ərəfəsində xalqımıza bu sevinci yaşadıb şanlı Bayrağımızı Şuşada ucaltmaqla tarix yazdığınızı fəxarətlə vurğulayıram. Sizi və şanlı Ordumuzu möhtəşəm Qələbə münasibətilə şəxsən özüm və ailəm adından ürəkdən təbrik edirik, igid, qəhrəman tarix yazan əsgər və zabitlərimizə cansağlığı, uzun ömür və müvəffəqiyyətlər arzulayırıq.

Şəhidlərimizin ruhu qarşısında baş əyirəm, yaxınlarına səbir diləyirəm!

Şəhidlərimizin ruhu şad olsun! Şəhidlərimizə Allah rəhmət etsin!

Eşq olsun Ali Baş Komandana! Eşq olsun Ordumuza!

Ulu Tanrı Sizi, Azərbaycan Ordusunu, əsgər və zabitlərimizi qorusun!

Yaşasın Ali Baş Komandan! Yaşasın Ordumuz!

Yaşasın Azərbaycan! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

Rüstəm Cəfərovdan, Lənkəran, Azərbaycan

**"Hörmətli cənab Prezident,**

Sizi torpaqlarımızın işğaldan azad edilməsi və Qələbə qazanmağımız münasibətilə təbrik edirəm.

Torpaqlarımızın azadlığı Sizin ölkəmiz naminə yorulmaz fəaliyyətinizin nəticəsidir. Bu yolda Sizə daim müvəffəqiyyətlər arzu edirəm.

Eşq olsun Azərbaycan Ordusuna, yaşasın Azərbaycan xalqı!

**Qarabağ Azərbaycandır!".**

Allahverdi Həsənovdan, Babək, Azərbaycan

"Müzəffər Ali Baş Komandan.

Siz bu Vətən müharibəsində erməni faşistləri üzərində qazandığınız möhtəşəm Qələbə ilə eyni zamanda onların yüz illərdən bəri Naxçıvana olan iddialarını puça çıxartdınız.

Çox hörmətli Prezidentimiz, Sizin komandanlığınızla yenilməz Ordumuz Qarabağı mənfur düşməndən azad etdi, möhtəşəm Qələbə qazandı. Bu Qələbə Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq.

Cənab Prezident, qazandığımız Qələ-

# Prezidentə məktublar: Cənab Prezident, qazandığımız Qələbənin baş memarı Sizsiniz. Uca Tanrı Sizi qorusun!

bənin mahir təşkilatçısı, baş memarı Sizsiniz. Uca Tanrı Sizi qorusun!

Zəfərimiz mübarək olsun!".

Nailə Bağırovadan, Gəncə, Azərbaycan

**"Cənab Prezident.**

Misilsiz Qələbələrimiz münasibətilə Sizi təbrik edirəm. Bu müharibə torpaq davası deyil, namus, qeyrət, mərdlik davasıdır. Bu davada qalib olduğunuz üçün xalq Sizə layiq olduğunuz adı verib "Tarix yazan Sərkərdə, xilaskar Prezident". Bütün çıxışlarınızı xalq əzbərləyib. Min illər keçsə də, Azərbaycan durduqca, dünya var olduqca, Sizin adınız tək Azərbaycan tarixində deyil, dünya tarixində qalacaq. Azərbaycan xalqının özünəinamını, mənəviyyatını, mərdlik, cəsarət, dostluq, səbir kimi keyfiyyətlərini qaytardığınız üçün Sizin qarşınızda baş əyirəm. Sağ olun, var olun. Allah Sizi və Sizin rəhbərliyiniz altında bu qələbəni bizə gətirən şanlı Ordumuzu qorusun, Haqq yolunda şəhid olanlara rəhmət eləsin!"

Kənan Hümbətlidən, Beyləqan, Azərbaycan

**"Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan.**

Siz ümummilli lider Heydər Əliyevin başladığı böyük yolu layiqincə davam etdirirsiniz. Siz böyük siyasi Lider, strateq, əsl Komandan olmaqla bərabər layiqli övladsınız.

Sizi və xalqımızı Qələbə münasibətilə təbrik edirəm. Bütün idman yarışlarında və digər istiqamətlərdə könüllü kimi fəaliyyət göstərən Azərbaycan vətəndaşları, xüsusilə gənclər bu günlər qazanılan qələbədə də könüllü kimi ilk sırada idi. Hər zaman fəaliyyətimizlə xalqımız, milliətimiz və dövlətimiz üçün yararlı olmağa hazırıq. Sizin rəhbərliyinizlə könüllülərin Vətən uğrunda xidmətləri gələcəkdə də ölkəmizə rifah gətirəcək. Daim Sizin əmrinizlə irəli getməyə hazırıq".

Gülüstan Qəhrəmanovadan, Sabirabad, Azərbaycan

**"Müzəffər Ali Baş Komandan.**

Sizin rəhbərliyinizlə şücaətli Ordumuzun yazdığı, əsrlərlə unudulmayacaq şanlı tariximizlə fəxr edir və qürur duyuruq.

Sizin rəhbərliyinizlə şanlı Ordumuzun tarixi zəfərləri uzun zaman keçsə də, yenidən doğma Qarabağ sevincini yaşamağı bizlərə qismət etdi. Qarabağın azadlığı Vətən sevgimizi daha da nurlandırır. Mən fəxr edirəm ki, Azərbaycanımızın ayrılmaz hissəsi olan azad Qarabağ yurdunun sakiniyəm".

Rəfiqə Əliyevadan, Biləsuvar, Azərbaycan

**"Möhtərəm Prezident cənab İlham Əliyev.**

Sizin möhkəm iradəniz sayəsində xalqımızın 30 ilə yaxın olan ağrılı, qanlı-qadalı günləri geridə qaldı. Sizi, xalqımızı, Ordumuzu möhtəşəm qələbə münasibətilə təbrik edir, ulu xalqımın əvəzsiz Liderinə ən səmimi arzularımı çatdırıram. Hamımız sevinirik, düşməndən şəhidlərimizin qisasını aldıq, torpaqlarımız azad olundu. Şəhidlərimizin ruhu qarşısında borcumuzu verdik. Bunlar müqəddəs hisslərdir. Keçirdiyimiz bu ifadəsiz sevinc hisslərini bizə bəxş etdiyiniz üçün Sizə, yenilməz Orduma sonsuz minnətdarlığımızı bildiririk. İnanırıq ki, qalib, yenilməz sərkərdəmiz kimi Sizin rəhbərliyiniz altında ölkəmiz gündən-günə çiçəklənəcək, xalqımızın rifahı daha da yüksələcək. Sizə, ailənizə cansağlığı, bundan sonrakı fəaliyyətinizdə uğurlar diləyirəm.

Var olsun Azərbaycan xalqı, yaşasın Ali Baş Komandan!".

Cəbrayıl Şirəliyevdən, İmişli, Azərbaycan

**"Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan.**

İşğal olunmuş ərazilərimizin müdrik rəhbərliyinizlə Müzəffər Ordumuz tərəfindən azad edilməsi münasibətilə Sizi ailəmiz adından səmimi qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, Vətənimizin çiçəklənməsi, dövlətimizin və dövlətçiliyimizin daha da inkişafı naminə səmərəli fəaliyyətinizdə böyük nailiyyətlər, yeni-yeni uğurlar arzulayırıq.

Cənab Prezident, Sizin adınız şanlı Qələbə tariximizə qızıl hərflərlə əbədi həkk edilmişdir. İşğal altında olan müqəddəs torpaqlarımızı mənfur erməni tör-töküntülərindən, iblis xislətli erməni faşizmindən, insanlıqdan, humanizm və sivil düşüncə tərzindən uzaq cəlladlardan azad etdiyiniz üçün Sizə sonsuz minnətdarlığımızı bildiririk. Döyüş meydanında və danışıqlar masası arxasında yenilməz iradə, siyasi müdriklik və əzm nümayiş etdirərək qazandığınız möhtəşəm Qələbə Azərbaycan xalqında özünə inam formalaşdırmış, hər bir azərbaycanlının qəlbində və vicdanında Ali Baş Komandanına olan ümid və güvəni daha da yüksəltmişdir. Biz Sizinlə fəxr edirik! Vətənimizin azadlığı uğrunda canlarından keçən şəhidlərimizə Uca Tanrıdan rəhmət diləyir, müqəddəs ruhları qarşısında baş əyirik. Yaralı əsgərlərimizə şəfa diləyirik. Qarabağ Azərbaycandır!".

Nağı Məmmədovdan, Abşeron, Azərbaycan

**"Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan.**

Bu məktubu həyəcansız yazmaq mümkün deyil. Hər bir qiymətli, dəyərli söz Sizin gördüyünüz işlər qarşısında acizdir. Uğurlu siyasətiniz, təmkininiz, uzaqgörənliyiniz 2020-ci il sentyabrın 27-dən başlayan bu Vətən müharibəsində bir daha özünü sübut etdi. Azərbaycan xalqı ilə ünsiyyətiniz, xalqı arxanızca aparmaq bacarığınız, xalqa müraciətiniz bunun bariz nümunəsidir.

Lider ölkənin Lider Prezidenti, Azərbaycan xalqı lider kimi yalnız Sizi qəbul edir. Ölkə daxilində sabitliyin qorunub saxlanılması bu nailiyyətlər üçün əlverişli zəmin yaratmışdır. Respublikada sabitliyin pozulmasında maraqlı olan xarici və daxili qüvvələrə qarşı qətiyyətli mübarizəniz nəticəsində bir sıra ölkələrdə həyata keçirilən "rəngli inqilablar" ssenarisi Azərbaycanda iflasa uğradı, iqtisadi inkişaf üçün lazım olan dinc şərait təmin olundu. Əvvəlki illərdən fərqli olaraq inflyasiyanın səviyyəsinin azadılması, minimum əməkhaqqının daha da yüksəldilməsi, regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının həyata keçirilməsi, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşması, korrupsiyaya qarşı mübarizə sahəsində aparılan çoxcəhətli fəaliyyət, vətəndaş həmrəyliyinin daha da inkişafı və s. sahələrdə qazanılmış uğurlar xarici siyasətdə də müvəffəqiyyətlər qazanılmasına imkan yaratdı. Bütün bunlarla yanaşı, Qarabağ savaşında da atdığınız uğurlu addımlar möhtəşəm Qələbə ilə nəticələndi. Azərbaycanı bütün bəşəriyyətə tanıtdınız. Ali Baş Komandan kimi əzmkarlığınız, qətiyyətliliyiniz sayəsində Azərbaycan Ordusunun mükəmməl hazırlığı, hərbi kadrların düzgün seçimi hər bir kəsə bariz nümunədir. Biz Sizinlə fəxr edirik! Fəxr edirik ki, Sizin kimi Prezidentimiz var, Sərkərdəmiz var! Azərbaycan xalqı Sizi çox sevir, həmişə arxanızdadır! Gələcək işlərinizdə uğurlar arzulayırıq!

Bəli, Ulu Öndərin təbirincə desək, "Mən fəxr edirəm ki, azərbaycanlıyam!".

Biz fəxr edirik ki, azərbaycanlıyıq! Azərbaycan artıq bütövləşdi, ərazisi tamamlandı. Azərbaycan tarixinə yeni tarix yazdınız. Bu tarix əbədi qalacaq!

Bütün nehrəmlilər adından Sizə minnətdarıq!

Yaşasın Ali Baş Komandan! Yaşasın Milli Ordumuz! Yaşasın Azərbaycan!

**Qarabağ Azərbaycandır!".**

Tofiq Allahverdiyevdən, Kəlbəcər, Azərbaycan

"Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan.

Mən öz adımdan və bütün Kəlbəcər rayonunun sakinləri adından Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Siz bizim 27 illik Vətən həsrətimizə son qoydunuz. Biz artıq öz dədə-baba yurdumuza - Kəlbəcərimizə qayıdırıq və bu, Sizin yürütdüyünüz mükəmməl siyasətin nəticəsidir. Siz bizim gözümüzdə və qəlbimizdə bir Fateh olaraq yaşayacaqsınız. Siz bu dünyada bizə cənnəti bəxş etdiniz. Allah Sizi və ailənizi daim qorusun!"

Nicat Quliyevdən, Beyləqan, Azərbaycan

**"Müzəffər Ali Baş Komandan.**

Doğma Qarabağın azad olunması xəbərlərini xalqımıza çatdırdığınız bu xoş günlərdə Sizə təşəkkür məktubumu göndərərək bildirmək istəyirəm ki, atam Quliyev Bəxşeyiş Maşallah oğlu 1-ci Qarabağ müharibəsində iştirak edərək, Füzuli rayonunun Aşağı Veysəlli kəndi uğrunda gedən döyüşlərdə 1994-cü il martın 16-da qəhrəmancasına şəhid olmuşdur. Mən atamın qisasını alacağım günün həsrəti ilə yaşayırdım.

Sizin güclü siyasətinizin və müzəffər Ordumuzun canı və qanı bahasına ard-arda qazanılan qələbələr məni çox sevindirdi, qürurlandırdı. Başda Siz olmaqla, qüdrətli Ordumuzun bütün igid əsgərlərinə sonsuz minnətdarlığımı bildirirəm. Şəhidlərimizin qanı yerdə qalmadı, ruhları şad oldu. Gözün aydın, Azərbaycan xalqı! Qarabağ Azərbaycandır!"

Anar Hacıyevdən, Şəmkir, Azərbaycan

**"Hörmətli cənab Prezident,**

Bizə yaşatdığınız bu böyük Qələbə sevincinə görə şəxsən Sizə və müzəffər Azərbaycan Ordusuna təşəkkür edirəm. Düşmən üzərindəki zəfərimiz münasibətilə Sizi və Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Yazdığınız Qarabağ salnaməsinin sevinci hər kəsə qürur hissi bəxş edir. Müzəffər Ali Baş Komandan, Sizə uzun ömür, cansağlığı arzu edirəm. Uca Allah Sizi qorusun!

**Qarabağ Azərbaycandır!"**

Şəbnəm Yarəhmədovadan, Gəncə, Azərbaycan

"Cənab Prezident, çox hörmətli İlham Heydər oğlu!

Sizi erməni işğalçılarına qarşı ikinci Qarabağ müharibəsində Qələbə münasibətilə təbrik edim. Sizə minnətdarlığımızı bildirirəm ki, Siz və şanlı Azərbaycan Ordusu bizə, bizim hər birimizə Qələbə bəxş etdiniz. Azərbaycanda hər bir evə, kəndə, şəhərə Qələbə gəldi. Sizin əzminiz, qətiyyətiniz, Ordumuzun yenilməzliyi sayəsində Qələbə sevinci yaşadıq. Sağ olun, var olun ki, 28 illik həsrətə son qoydunuz. Qarabağımız bizim oldu, hər zaman da bizim olacaq. Biz sonsuz qürur duyuruq ki, ölkəmizin Sizin kimi Prezidenti, Ordumuzun isə Sizin kimi Ali Baş Komandanı var. Allah Sizi və ailənizi qorusun!

Yaşasın Azərbaycan! Yaşasın Ali Baş Komandan! Qarabağ Azərbaycandır!"

Emin Məmmədovdan, Quba, Azərbaycan

**"Hörmətli cənab Prezident.**

Sizi ölkəmizin ərazi bütövlüyü uğrunda apardığımız bu haqq savaşında erməni işğalçıları üzərində qazandığımız Qələbə münasibətilə ailəm və öz adımdan ürəkdən təbrik edirəm. Azərbaycanın xilaskarı Ali Baş Komandanımıza, müzəffər Azərbaycan Ordusunun bütün əsgər və zabit heyətinə uca Tanrıdan cansağlığı arzulayıram.

Müzəffər Ali Baş Komandan, Siz hər bir Azərbaycan vətəndaşının arzuladığı bir hissi, yəni qalib ölkənin vətəndaşı olmaq kimi şərəfli və qürurverici bir hissi bizlərə yaşatdınız. Biz tarixdə görünməyən bir prosesin, Azərbaycanın işğal olunmuş ərazilərinin xain düşməndən azad olunmasının şahidi olduq. Artıq başqa dövlətlərə səfər etdikdə də biz öz torpağının bir qarışının belə düşmən tapdağında qalmasına razı olmayan, son nəfəsinədək vuruşaraq torpağını yağı düşməndən azad edən qalib bir ölkənin qürurlu vətəndaşı kimi fəxarət hissi keçirəcəyik. Artıq məcburi köçkünlərimizin öz tarixi ata-baba yurdlarına qayıda bilməsi bizləri çox sevindirir.

Bu şərəfli hissləri bizə yaşatdığınıza görə bir daha Sizə və rəşadətli Ordumuza təşəkkür edirəm. Allahdan bütün şəhidlərimizə rəhmət diləyirəm, valideynlərinə "Allah səbr versin" deyirəm, yaralı əsgərlərimizə isə tezliklə sağalmalarını arzu edirəm.

Qarabağ Azərbaycandır! Yaşasın bütöv Azərbaycan!"

Raqif Tağıyevdən, Göygöl, Azərbaycan

**"Hörmətli cənab Prezident.**

200 illik tariximizdə işğal olunan torpaqlarımız geri alınmayıb. Kəlbəcər rayonunun alınması mənə yuxu kimi gəlirdi. Siz bu yuxunu reallığa çevirdiniz. Buna görə Sizə sonsuz minnətdarlığımızı bildiririk.

Bundan sonra ölkəmizin və xalqımızın tarixində yeni dövr başlayır. Artıq biz məcburi köçkün deyilik, tezliklə öz evimizə dönəcəyimiz günü səbirsizliklə gözləyirik. Qazandığınız zəfərlə Azərbaycan xalqının başını uca etdiniz, məğrur və yenilməz xalq olduğunu bütün dünyaya sübut etdiniz. Allah Sizi həmişə uca etsin! Var olun, cənab Prezident!

Yaşasın Ali Baş Komandan! Yaşasın Azərbaycan Ordusu!

Qarabağ Azərbaycandır!".

ANALİTİKA

# Paşinyan getsə belə, anti-Rusiya siyasəti qalacaq

## *Bunu erməni politoloqunun fikirləri də sübut edir*

***Nikol Paşinyanın hakimiyyətdən getməsini sürətləndirən əsas səbəblərdən biri və birincisi onun "məxməri inqilab" vasitəsi ilə Rusiya əleyhinə başlatdığı siyasəti oldu. Məhz anti-Rusiya siyasəti nəticəsində, daha dəqiq desək, Paşinyanın Sorosun verdiyi təlimatlarını icra etməsi faktı - "Qarabağ Ermənistandır və nöqtə", yaxud Şuşada sərxoş şəkildə yallı getməsi sonrakı prosesləri sürətləndirdi. Bütün bunlar öz yerində və bəllidir ki, Nikolun getməsini tələb edən məğlub dövlətin rüsvay olmuş xalqı, müxalifəti indi onun Rusiyaya yalmanmasının yolverilməz olduğunu da deyirlər.***

### Putinin KTMT-nin iclasında Paşinyanın başına "sığal" çəkməsi nəyə hesablanıb?

Maraqlıdır ki, Qarabağdakı məğlubiyyətin əsas səbəbinin Paşinyanın hakimiyyətə gələr-gəlməz Rusiya əleyhinə siyasət aparması ilə əlaqələndirənlər indi Vladimir Putinin KTMT-nin video-konfransında onun başına sığal çəkərək, "mərdlik" göstərməsi - yəni Qarabağla bağlı üçtərəfli atəşkəs bəyannaməsini imzalaması fikrinə qıcıqlanır, hiddətləndirlər. Bu isə belə deməyə əsas verir ki, hətta Ermənistanın mövcud hakimiyyəti devrilsə belə, onun yerini tutan müxalifətçilər də anti-Rusiya siyasətini yürütməyə davam edəcəklər. Bunu verilən açıqlamalardan, bəyanatlarda da sezmək mümkündür. Misal üçün, erməni politoloqu Stepan Danielyan Facebook sosial şəbəkəsində yazıb ki, Nikolun komandası Putinin sözlərindən istifadə edib, digər tərəf isə pəjmürdə olub.



Erməni politoloqu əsasən deyib: "Açıq danışsaq, bundan ruhlananlar və təəssüf hissi keçirənlər bir-birinin yanında dayanıblar... Vladimiroviç (Putin) Vovayeviçə (Paşinyan) sadəcə şəxsi təhlükəsizliyinə zəmanət verib, onun komandasına isə gələcəkdə daha az qulaqburması verəcəyi ümidini".

### Stepan Danielyan: "Belə təriflərlə "Mənim addımım" hakim blokunun üzvləri ruhlanmaq yerinə utanmaqdan alov tutub yanmalıdırlar"

"Mən "mərdlik" sözünün mənasını anlamayanlara da izah edəcəm", qeyd edən Danielyan bldirib: "Onların (Paşinyan komandasının) "mərdliyi" bundan ibarətdir ki, onlar erməni xalqının maraqlarına qarşı çıxıblar, yəni onlar bizə qarşı cürətli addım atıblar, ancaq həmin "mərdlik" Azərbaycana qarşı göstərilməyib. Belə təriflərlə "Mənim addımım" hakim blokunun üzvləri ruhlanmaq yerinə utanmaqdan alov tutub yanmalıdırlar".

### Taron Tonoyan: "Artıq Paşinyan Rusiya Federasiyasının prezidenti üçün ona sakit şəkildə tabe olan fiqurdur"

Digər erməni müxalifi, birinci Qarabağ müharibəsinin iştirakçısı Taron Tonoyan sözügedən məsələyə ilginc münasibət açıqlayıb. Onun Ermənistanın Faktİnfo saytına verdiyi açıqlamasına görə, hətta Ermənistanın prezidenti Armen Sarkisyan Nikol Paşinyanın istefasını tələb etsə də, buna sıfır reaksiya göstərilir.

"Analoji tələblə digər siyasi strukturlar da çıxışlar edirlər", deyən Tonoyana görə Vladimir Putin erməni ictimaiyyətinə bir sıra eyhamlar vurur: "Rusiya Federasiyasının prezidenti bizə düşünməyə imkan verir ki, sizin (Ermənistanın) rəhbərliklə münasibətləriniz, ilk növbədə, milli maraqlarınıza cavab vermir, özünüz öz liderinizi dəyişin".

"Artıq Paşinyan Rusiya Federasiyasının prezidenti üçün ona sakit şəkildə tabe olan fiqurdur", deyən Tonoyan həm də bildirib ki, regionda Türkiyə faktorunu da nəzərə alan Rusiyaya zəif Ermənistan lazım deyil və Paşinyan hazırda ona sərf edir.

Göründüyü kimi, Rusiya prezidenti Vladimir Putinin Nikol Paşinyanın hakimiyyətini saxlaması üçün atdığı müəyyən addımlar həm də onu sübut edir ki, erməni baş nazir onu hakimiyyətə gətirməyə müyəssər olmuş Sorosun dəstəyindən imtina da etməyə hazırdır. Ancaq bunun da fəsadları mümkündür. Məsələn, Soros Ermənistanda yeni inqilab ssenarisi yarada və Paşinyanı digəri ilə əvəzləyə bilər.

Ancaq fakt budur ki, artıq oyunun qaydaları dəyişir və belə desək, Paşinyan devrilərsə belə, hakimiyyətə gələn hər hansı bir "x" adam Qarabağ müharibəsində uzun müddət susqun qalan Rusiyaya qarşı siyasətini davam etdirəcək. Hər halda proseslər də buna doğru inkişaf edir.

***Rövşən RƏSULOV***

# COVID-19 pandemiyası ilə mübarizədə güclü olaq



***Bu gün dünya ölkələrinə olduğu kimi, Azərbaycan da COVID-19 pandemiyası sürətlə yayılmaqdadır. Bu qorxunc xəstəlik yeni tip virusdur və qarşısını almaq mümkün olmadığından məsuliyyət insanların üzərinə düşür. Dünya ölkələrində bu istiqamətdə ciddi araşdırılmalar aparılsa da, hələ ki, müsbət nəticə əldə olunmayıb. Vaksinin hazırlanmasına vaxt tələb olunur və bu baxımdan qorxunc xəstəliklə birgə yaşamaq məcburiyyətindəyik.***

İnsanların kütləvi şəkildə toplaşmasının məhdudlaşdırılması, məsafənin saxlanılması və tibbi qoruyucu vasitələrdən istifadə üzərimizə vətəndaş olaraq üzərimizə düşən məsuliyyətdir. Bir nəfərin məsuliyyətsiz davranışı neçə-neçə insanı virusun daşıyıcısına çevirə bilər. Tələb edilən qaydalara əməl etməsək virusun kabus olaraq əhatəmizi daha geniş şəkildə bürüyəcəyini dərk etməliyik. Təbii ki, dövlətin qətiyyətli və düşünülmüş addımları, vətəndaşların məsuliyyəti imkan verəcək ki, bu vəziyyətdən az itkilərlə çıxaq.

Koronavirus pandemiyasının ilk vaxtlarından vətəndaşların sağlamlığının qorunması məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə virusun geniş yayılmasının qarşısının alınması üçün ölkə ərazisində çevik və sistemli tədbirlər həyata keçirildi. Nazirlər Kabineti yanında Operativ Qərargahın fəaliyyətə başlaması, Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, karantin rejiminin tətbiqi məhz koronavirusla effektiv mübarizəyə xidmət edir. Ölkəmizə Avropa istehsalı olan laborator testlər, tibb avadanlığı və ləvazimatlar, qoruyucu vasitələr vaxtında gətirilərək tibb müəssisələrinə təhvil verildi. Bundan başqa ölkədə 46 xəstəxana koronavirus xəstələrinə xidmət göstərmək üçün ayrıldı. "Yeni Klinika" fəaliyyətə başladı. Görülən bu və digər tədirlər insanların sağlamlığına yönəlib. Təbii ki, görülən tədbirlər dünya statistikasına baxdıqda ölkəmizdə əldə edilmiş nəticələri göstərir.

Bu günə qədər ölkə üzrə ümumi ölüm faizi 1.1 faiz təşkil edir. Dünya ölkələrində isə daha yüksəkdir. Belə ki, Türkiyədə bu rəqəm 2.1 faiz, Böyük Britaniyada 3.6 faiz, ABŞ-da 2 faiz, Kanadada 3.2 faiz, Avropa İttifaqı ölkələrində isə 2.3 faiz təşkil edib. Azərbaycanda ötən həftədə 25 min 895 nəfər koronavirusa yoluxması vəziyyətin olduqca kəskin hal almasını göstərir. Koronavirus səbəbindən hər gün onlarla insanın həyatını itirməsi yüksək göstəricidir. Statistik rəqəmlərə istinad etsək görərik ki, gündəlik yoluxmalarda müayinə əmsalında 29 faiz ən yüksək göstərici olaraq aşkarlanıb.

Unutmamalıyıq ki, bu statistik göstəricilər səhiyyə sisteminin normal fəaliyyəti üçün çox böyük çətinliklər yaradır. Bu artım bir tərəfdən mövsümi faktorlarla bağlı olsa da, digər tərəfdən insanların məsuliyyətsizliyidir. Qlobal məsələyə çevrilən koronavirusla mübarizədə həmrəylik əsas şərtlərdən biridir. Bu gün mütəxəssislərin qənaətinə görə, sərt tədbirlərə ehtiyac zəruri hesab olunur. Sərt tədbirlər görülərsə, yayılmanın qarşısı o zaman alınacaq. Yoluxma saylarını azaltmaq üçün isə biz bir vətəndaş olaraq insanlarla təmasları məhdudlaşdırmalı, tələb olunan qaydalara əməl etməliyik. Bu günün reallıqları təcrid olunmaq üçün qeyd olunun vasitələrdən düzgün istifadə etməkdir. İctimai nəqliyyatda, qapalı məkanlarda maskalardan, gigiyenik qaydalardan düzgün istifdə edək. COVID-19 pandemiyası ilə mübarizədə birlik göstərib, qalib olaq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# ABŞ-ın "Journal News" qəzetində Azərbaycanın Ermənistan üzərində qələbəsinə dair məqalə dərc edilib

ABŞ-ın "Journal News" qəzetində Azərbaycanın Ermənistan üzərində qazandığı zəfərlə bağlı məqalə dərc edilib. Məqalədə deyilir ki, Qarabağda altı həftəlik müharibəni bitirən razılaşmadan sonra Ermənistan ərazilərin Azərbaycana qaytarılmasını başa çatdırdı. Azərbaycan Prezidenti İlham Əliyev bu ərazilər üzərində nəzarətin bərpasını tarixi zəfər adlandırdı. "Biz hamımız bir arzu ilə yaşamışıq və bu arzunu həyata keçirmişik... Biz döyüş meydanında, siyasi müstəvidə Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır", - deyə Prezident Əliyev xalqa müraciətində söyləyib.




Məqalədə 1990-cı illərdə Ermənistanın Dağlıq Qarabağ bölgəsini və ona bitişik yeddi rayonu işğal etdiyi bildirilir. Qeyd edilir ki, sentyabrın 27-də başlayan 44 günlük şiddətli döyüşlərdə Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın edib.

Azərbaycanda hərbi əməliyyatların başa çatması ilə bağlı razılaşmanı qələbə kimi qeyd edildi, Ermənistanda isə kütləvi etirazlara səbəb oldu. Minlərlə erməni Yerevan küçələrinə çıxaraq baş nazir Nikol Paşinyanın istefasını tələb etdi.

# Ermənipərəst qüvvələr məğlubiyyətə uğrayıblar



Belçika Federal Parlamentinin Xarici əlaqələr komitəsinin bu gün keçirilən iclasında erməni diasporu və ermənipərəst qüvvələrin anti-Azərbaycan səyləri puç olub.

AZƏRTAC xəbər verir ki, ermənipərəst deputatların gündəmə gətirdiyi sabiq işğalçı rejimin tanınması, onunla "diplomatik əlaqələrin" qurulması və Azərbaycana qarşı tədbirlərin tətbiqi, Türkiyənin Avropa İttifaqı üzvlüyünə dair danışıqların dərhal dayandırılması və digər cəfəng çağırışları əks etdirən bütün təkliflər səsvermədə qəti şəkildə rədd edilib. Belçika Federal Parlamentinin Xarici əlaqələr komitəsi parlament çoxluğunun regionda gələcək barışığa və sülhə yönəlik ismarıcları olan qətnamə layihəsini təsdiq edib. Qətnamə layihəsinin yekun mətninin gələcək plenar iclasların birində səsverməyə qoyulması gözlənilir.

# "Heç kim Azərbaycan ordusunun bu qısa müddətdə böyük uğurlarını gözləmirdi"

***Sankt-Peterburq Dövlət Universitetinin postsovet məkanında beynəlxalq münasibətlər kafedrasının professoru, tarix elmləri doktoru Niyazi Niyazov Pravda.Ru TV studiyasında fikirlərini bölüşüb. Həmin müsahibənin 2-ci hissəsini təqdim edirik. Müsahibənin əvvəlini oxuyun: https://sia.az/az/news-/politics/840666.html***

*- Fakt budur ki, 2016-cı ildə Rusiyanın xahişi ilə Azərbaycan ordusunun hücum əməliyyatları dayandırıldı.*

- Sonra təbii ki, Ermənistan bunu bir neçə dəfə inkar etməyə çalışdı, amma məlumdur ki, o dövrdə döyüş əməliyyatlarına son qoymağın şərtlərindən biri də Ermənistanın o zamankı prezidenti Serj Sarkisyanın münaqişənin həllində güzəştə gedəcəyinə söz verdiyi öhdəliyi idi. Sonra xatırlatmaq istərdim, söhbət Lavrov planının həyata keçirilməsinin başlanğıcından gedirdi: eyni məşhur düstur: 5 rayon, 5 il sonra 2 rayon azad olunur, daha sonra statusu müzakirə, qaçqınların geri dönməsi.

O vaxt müharibə bu vədlərlə dayandırıldı, çünki Azərbaycan əvvəldən deyirdi ki, müharibə siyasətin son hədəfi deyil, son məqsədi ərazilərin azad edilməsidir. "Bunu diplomatik yolla, sülh yolu ilə etmək olarsa, buna hazırıq, deyək ki, vasitəçiləri dinləməyə hazırıq. Biz danışıqlar prosesinin potensialından fəal şəkildə istifadə etməyə hazırıq"- belə bəyan edilmişdi.



### Sülh prosesini Paşinyanı dəfn etdi

Paşinyan, döyüş əməliyyatları başlayanda, bir neçə dəfə Azərbaycan tərəfdən prezident Putin vasitəsilə ona səslənən təkliflərdə, Ermənistanın həqiqətən də BMT-nin 4 məşhur qətnaməsinin və Lavrovun planının yerinə yetirilməsinə razı olduğu təqdirdə Azərbaycanın hərbi əməliyyatları dayandırmağa hazır olduğu barədə təkliflər aldı.

Lakin Paşinyan, görünür, hər dəfə erməni ordusunun Azərbaycan qoşunlarının hücum impulsunu qoruya biləcəyinə əmin idi və bu barədə Rusiya ekspertləri də daxil olmaqla bir çox mütəxəssis yazmışdı. Mütləq inam var idi, heç kim Azərbaycan ordusunun bu qədər qısa müddətdə bu cür uğurlara imza atacağını gözləmirdi, çünki müdafiə xətti əslində 27 ildir hazırlanmışdı, bir neçə müdafiə xətti var idi, dərin eşelonlu, minalanmış ərazilərlə təmin edilmiş və s.

Erməni siyasətçilər, görünür müharibənin uzanan bir xarakter alacağını, Azərbaycan ordusunun irəliləməsinin minimal olacağını və yenə də danışıqlarda bazarlıq etmək mümkün olacağını və bu bazarlıqın, məsələn, Qarabağın dağlıq hissəsinin Azərbaycandan ayrılması da daxil olmaqla, Ermənistanın maraqlarını qorumağa kömək edəcəyini ümid edirdilər.

Bu hesablamalar Azərbaycan ordusu tərəfindən ləğv edildi ??və nəticədə, əlbəttə ki, Vladimir Putin de-fakto Ermənistana bir seçim təqdim etdi: ya bölgədəki qüvvələrinizin tam bir məğlubiyyəti, tam bir nəzarət itkisi, ya da həqiqi təslim olmaq üçün danışığa gedin, eyni zamanda əsgər və zabitlərinizin həyatını xilas edin, qalan ordu hissələrini qoruyun. Və erməni tərəfi sadəcə bu sülh şərtləri ilə razılaşmaq məcburiyyətində qaldı.

*- Əliyevin sərt bir vəsvəsəsi var idi- sülh müqaviləsi bağlamamaq, axı Şuşa praktik olaraq alındı, yalnız Stepanakerti (Xankəndi-red) almaq qaldı və sonra ermənilər dağıldı, xüsusən də Ermənistan, başa düşdüyüm kimi, qoşunlarını göndərməyib, yalnız könüllülər Qarabağda döyüşdü?*

- Mövcud olan "Dağlıq Qarabağ ordusu" əslində öz döyüş vahidlərinə sahib 2 ordu, İrəvanın tam komandanlığı altında bir struktur təşkilatı idi. Əsl bir ordu.

Ermənistan vətəndaşları, o cümlədən Qarabağda doğulub böyüyən ermənilər, yəni foto və videolarda görünən hərbçilər xidmət edirdilər- bu təbliğat və reklam məqsədi ilə bir filmdir. Bu, ordunun məğlub olduğu müharibənin son mərhələsidir.

Əsgər köçürülməsinə gəlincə, bu belə deyil. Ermənistanın döyüş birləşmələrini Qarabağa köçürdüyünə dair bir çox dəlil var, lakin bunlar, ilk növbədə pilotsuz uçuş aparatları ilə, Azərbaycan ordusunun artilleriyası tərəfindən çox sürətlə məhv edildi.

Burada, bir nümunə olaraq, internetdə bir vaxtlar Ermənistandan Rusiyada keçirilən məşhur tank marafonuna qatılan tanklardan birinin fotosu var. Sonra onu Qarabağdakı hərbi əməliyyatlarda iştirak etmək üçün Ermənistan göndərdi. Orada Azərbaycan qoşunları tərəfindən sağ-salamat ələ keçirildi.

Bu cür ələ keçirilən birliklərin sayı çoxdur, "Dağlıq Qarabağ" yox, Ermənistan Respublikasının silahlı qüvvələrinin işarələri var.

Öldürülmüş erməni əsgər və zabitlərinin siyahılarına baxsanız, bu insanların böyük payı Ermənistan Respublikasının sakinləridir, bu da bir daha buradakı döyüş hissələrinin Ermənistandan köçürülməsinin həyata keçirildiyini göstərir.

Anlaşılmalıdır ki, Şuşa ələ keçirildikdə, Azərbaycan artıq indi sülhməramlıların nəzarətində olan Laçın dəhlizini kəsmişdi və buradan dar bir dağ yolu ilə ataş içindən keçmək intihar olardı, istər tanklar, istər hava müdafiə sistemi ilə özüyeriyən artilleriya qurğuları. Çünki pilotsuz təyyarələr ora tamamilə nəzarət edirdi.

İkinci yol- işğal qoşunlarının indi geri çəkildiyi Kəlbəcərdən olan yol da Azərbaycan ordusunun ataş nəzarəti altında idi.

Qoşunların qalıqlarını da Qarabağa göndərməklə, Ermənistan yalnız bir şeyə nail ola bilərdi - heç bir hərbi uğur qazanmadan bu müharibənin ocağına daha çox qurban atmaq.

*- Nikol Paşinyan, Qarabağın 20 minlik ordusundan danışarkən...*

- O, Ermənistanın qondarma "Dağlıq Qarabağ Respublikası"nın təhlükəsizliyinin qarantı olmadığını ifadə etdi və əslində 2 qrupun olduğunu etiraf etdi: "Dağlıq Qarabağ" və Ermənistan qoşunlarının birləşməsi...

*Davamı olacaq*

*Elçin Bayramlı*

# Liparityan: Yuxu görmək Ermənistanın həyat strategiyasıdır

***"Yuxu görmək Ermənistanın həyat strategiyasıdır". SİA xəbər verir ki, bunu Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyanın məsləhətçisi, 1990-cı illərdə Qarabağ müzakirələrinin əsas iştirakçılarından olan Jirayr Liparityan BBC-yə müsahibəsində deyib. Liparityan Ermənistanın Qarabağ mövzusunda son 25 ildir əhəmiyyətli ölçüdə xətalara yol verdiyini bildirib: "Ermənistan tərəfi lazımsız formada Türkiyə ilə Azərbaycanı qıcıqlandıracaq addımlar atdı.***

Yuxu görmək Ermənistanın həyat strategiyasıdır, amma yuxu görmək bir strategiya deyil. Qarabağ mövzusunun 2 əsas ünsürü vardı. Bunlar Dağlıq Qarabağın statusu və Azərbaycana aid olub Ermənistan qüvvələrinin nəzarətində saxlanan 7 bölgənin vəziyyəti idi. Beynəlxalq ictimaiyyət 30 il Qarabağın müstəqilliyini tanımayacağını söylədi".

O, Türkiyə, Rusiya, ABŞ, Fransa və İranın Azərbaycanın ərazi bütövlüyü üzərindən variantlar təqdim etdiyini xatırladıb: "Dünyada heç kim bu 7 bölgəni işğal edəcəyimizi gözləmirdi. Hər zaman müəyyən şərtlər altında geri verilmələrini gözləyirdi. Bu şərtləri qəbul etmək Ermənistan üçün əhəmiyyətli deyildi. Azərbaycanın zamanla hərbi qüvvə və müxtəlif mənbələr baxımından gücləndiyini unutmamalıyıq. Uzlaşmağa gedən prosesi uzatmaqla müharibə bir o qədər yaxınlaşdı və bu müharibədə qalib gəlmək şansımız da o qədər azaldı".

Liparityan Ermənistanın baş naziri Nikol Paşinyanın Qarabağ mövzusunda yol verdiyi xətalara diqqət çəkib: "Paşinyan



Dağlıq Qarabağın statusu ilə bağlı razılaşma olmadan Azərbaycanın ciddi qəbul olunmayacağı və müzakirələrin mənasız olduğu istiqamətində təkidini davam etdirdi. Bu vəziyyətin müharibəyə gətirib çıxaracağı təqdirdə isə müharibəyə hazır olduğunu düşündü. Bu mövqe Ermənistanın son 25 ildə sərgilədiyi mövqe idi. Bütün istiqamətlərdən baxanda müharibəni 30 il əvvəl udmadığımız kimi bu gün udmayacağımız çox açıq idi. Paşinyanın müharibənin 4-cü günündə bu məsələ ilə bağlı xəbərdarlıq aldığını da öyrənmiş olduq".

O, Paşinyanın Türkiyənin ərazi bütövlüyünə qarşı açıqlamalar verdiyini də bəyan edib. Bildirib ki, Ermənistan 200 ildir eyni zehniyyətdə qalıb: "Heç kim beynəlxalq ictimaiyyətin bizə demək istədiyini dinləmək istəmədi. Beynəlxalq ictimaiyyətin görüşü bizim üçün əhəmiyyətli olmalıdır. Çünki uduzanda onların qabağına qaçırıq. Onlardan edə bilməyəcəklərini etmələrini istəyirik". Liparityanın sözlərinə görə, üçtərəfli bəyanatı heç kim dəyişdirə bilməyəcək: "Razılaşma artıq hər hansı seçim problemi olmadığını açıq şəkildə ortaya qoyur. Müstəqil Qarabağ və ya Azərbaycanın daxilində bir bölgə - bu seçim artıq mövcud deyil".

*Aysel Məmmədova*

# VƏHŞİLİK: Ermənilərin "Asbarez" nəşri Bakını radioaktiv səhraya çevirməyə çağırdı

***Ermənilərin ABŞ-da nəşr edilən "Asbarez" qəzeti Azərbaycana və onun vətəndaşlarına qarşı bütün dünyada qadağan olunmuş kütləvi məhv silahı (KMS) tətbiq etməyə çağıran məqalə ilə çıxış edib. SİA xəbər verir ki, bu haqda Türkiyənin "Sabah" nəşri yazır. (Armenian newspaper calls for use of nuclear weapon against Azerbaijan ) "Asparez"də sözügedən yazı ilə çıxış edən Stepan Altunyan Ermənistan hökumətinə çağırış edərək istənilən əlçatan nüvə silahından istifadə etməklə "Azərbaycanın paytaxtı Bakını növbəti 5000 ildə səhraya çevirməyə" səsləyib.***



"Mən digər bütün ermənilər kimi dəhşətə gəlmişəm, ancaq təəccüb də etmirəm ki, Ermənistan azərbaycanlılara uduzub", yazan Altunyan noyabrın 10-da imzalanmış kapitulyasiya aktını nəzərdə tutub.

"Onlar (azərbaycanlılar) Bakını növbəti 5000 ilə radioaktiv səhraya çevirmək məqsədimizi anladıqdan sonra düşünməyə başlayacaqlar"

Maraqlıdır ki, "Asbarez"in rəhbərliyi tərəfindən də dəstəklənən və dərc edilən məqalədə erməni müəllif sual edib: "Bəs nüvə variantı necə oldu? Nəyə görə də Metsamordakı nüvə qalıntılarını çıxarıb, çirkli bomba hazırlanmasın?".

"Onlar (azərbaycanlılar) Bakını növbəti 5000 ilə radioaktiv səhraya çevirmək məqsədimizi anladıqdan sonra düşünməyə başlayacaqlar", erməni müəllif yazır.

Qeyd edək ki, Azərbaycanın Los-Ancelesdəki Baş konsulluğu dərhal adıçəkilən erməni informasiya agentliyinin və qəzetinin həmin məqaləsini pisləyib və eyni zamanda, ABŞ-ın hüquq-mühafizə orqanlarını sözügedən məsələ ilə bağlı araşdırmağa çağırıb. "Biz Los Anceles FTB-ni və polisi bu işi araşdırmağa çağırırıq", deyə Baş konsulluq tələb irəli sürüb.

*Rövşən RƏSULOV*

XƏBƏRDARLIQ

# Koronavirusa təkrar yoluxma ilə bağlı

## Adil Allahverdiyev: *"Azərbaycanda koronavirusla bağlı mütləq sərt tədbirlərə əl atmalıyıq"*





***Nazirlər Kabineti yanında Operativ Qərargahın dekabrın 2-də keçirilən brifinqində Vəli Axundov adına Elmi Tədqiqat Tibbi Profilaktika İnstitutunun direktoru, professor Adil Allahverdiyev bildirib ki, ötən ilin sonundan Çində ortaya çıxan yeni növ koronavirus bütün dünyada yayılaraq pandemiyaya çevrildi: "Bu gün artıq bu virus dünyanın bütün ölkələrini əhatə edir".***

Professor onu da vurğulayıb ki, artıq yoluxma getdikcə artmaqdadır və bunun qaşısını almaq üçün ciddi qərarların qəbuluna ehtiyac var: "Xüsusilə də insanların bir yerə toplaşmaması üçün çalışmaq lazımdır. Nə qədər sərt tədbirlər görsək, nəticə əldə edəcək. Azərbaycanda mütləq sərt tədbirlərə əl atmalıyıq. Bu olmazsa, xəstəxanalarda yer qalmayacaq. Türkiyə kimi səhiyyəsi güclü ölkədə artıq xəstələri yerləşdirməyə yer tapılmır. Sərt tədbirlər tətbiq edilmədən Azərbaycanda da nəticə belə olacaq. Sərt tədbirlər tətbiq ediləndən sonra virusu kontrol altına almaq lazımdır".

A.Allahverdiyevin sözlərinə görə, virus yenidir və müalicəsi üçün lazım olan dərmanlar da azdır: "Hələlik, COVID-19-a qarşı spesifik dərman preparatı yoxdur. Ən qısa zamanda dünyanın müxtəlif laboratoriyalarında vaksin hazırlıqlarına başlanıldı. Hazırda 11 vaksin üzrə işlər gedir, amma dövriyyəyə buraxılan vaksin yoxdur. Vaksin olsa belə, onların effektivliyi də şübhə altındadır. Koronavirusa yoluxmuş şəxslərdə anticismlər dörd-beş ay olur və şəxs yenidən yoluxa bilər". Direktor bildirib ki, koronavirusa yoluxmadan qorunmaq üçün insanlar gigiyenik qaydalara riayət etməlidir.

### Mütəxəssis: "Yoluxmanın qarşısını almaq üçün 2-3 həftəlik sərt karantin rejiminə keçmək lazımdır"

"Hazırda koronavirusla bağlı epidemik durum kritikdir. Gündəlik yoluxmanın 4000 üzərində olması yüksək göstəricidir. Tədbirlər görülməsə, bu göstərici gündəlik 5000-dən çox olacaq. Yoluxmanın əsas səbəbi əhalinin profilaktik tədbirlərə tam riayət etməməsi, maskalardan və dezinfeksiyaedici vasitələrdən istifadə olunmaması, eyni zamanda, havaların soyuması ilə əlaqədar virusun virulentlik və patogenliyinin artması nəticəsində daha çox yayılmasıdır. Havalar soyuduqca insanlar qapalı məkanlara daha çox üz tutur. Qapalı məkanlar da virusun daha tez yayılmasına gətirib çıxarır".

Bunu infeksionist Azərbaycan Tibb Universitetinin Yoluxucu xəstəliklər kafedrasının əməkdaşı Vüqar Cavadzadə deyərək vurğulayıb ki, hazırda xəstəlik iyun-iyul aylarına nisbətən yüngül keçir: "Yay aylarında ağır, stasionar müalicəyə ehtiyacı olan xəstələrin sayı daha çox idi. Amma indi yoluxma halı çox olsa da, ağır xəstələrin sayı yaya nisbətən azdır. Bunu klinik olaraq gündəlik xəstələr arasında görürük. Hazırda xəstəlik əvvəlki aylarda olan simptomlarla özünü biruzə verir. Fərqli bir xüsusiyyət yoxdur. Xəstələrdə, əsasən, hərarətin olması, quru öskürək, iy və dadbilmə qabiliyyətinin itməsi, bəzi xəstələrdə ishalın olması - bu kimi əlamətlər daha çox özünü göstərir. Yəni bu əlamətləri daha çox müşahidə edirik".

V.Cavadzadə qeyd edib ki, koronavirusun ürəkdə müəyyən problemlər yaratması ilə bağlı fikirlər doğrudur: "Koronaviruslu xəstələrlə işlədiyim müddətdə xüsusən yaşlı insanlarda ürəkdə problemləri şəxsən müşahidə etmişəm. Bu xəstələrdə daha çox perikardit əlamətləri olub, bu, perikard boşluğunda mayenin miqdarının artmasıdır. Bundan başqa ikincili intoksikasiya fonunda yarana bilən və ya ağciyər fəaliyyətinin pozulması nəticəsində olan problemləri müşahidə edirik".

İnfeksionistin sözlərinə görə, hazırda gündəlik 4000 yoluxma ancaq test aparılanlarda üzə çıxan rəqəmdir: "Lakin evdə olan, test olunmayan xəstələr də var. Demək olar ki, yoluxma daha çoxdur. Fikrimcə, yoluxmanın qarşısını almaq üçün 2-3 həftəlik sərt karantin rejiminə keçmək lazımdır. Hesab edirəm ki, yoluxmalar daha çox ictimai nəqliyyatda olur. Nəqliyyatda insanların sayı həddən artıq çoxdur. Bu da yoluxmanın sürətlə yayılmasına səbəb olur. Sərt karantinə getmək lazımdır ki, xəstəliyin sayı daha da artmasın".

### Xəstəliyin yayılmasının başlıca səbəbi bəzi insanların məsuliyyətsizliyidir

Sözsüz ki, hər bir mənfi halın baş verməsinin səbəbi məsuliyyətsizlikdən irəli gəlir. Mütəxəssislərin sözlərinə görə, virus yoluxmanın səbəbi də vətəndaşlarımızın məsuliyyətsizliyndən irəli gəlir. Dövlət başçısı yaranmış bu rejimin nə vaxta kimi davam edəcəyinin məlum olmadığını deməklə, onu da bildirib ki, virusa yoluxmanın səbəbi insanların məsuliyyətsizliyidir.

Azərbaycan Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva bütün görüş və çıxışlarında insanları məsuliyyətli olmağa, karantin rejiminin qaydalarına əməl etməyə çağırışları edib. Dövlət başçısı bildirib ki, xəstəliyin yayılmasının başlıca səbəbi bəzi insanların məsuliyyətsizliyidir: "Ona görə indiki rejim nə qədər davam edəcək və bu rejim daha da sərtləşəcək, yoxsa yumşalacaq, yaxın gələcəkdə biz bunu görəcəyik. Yenə də demək istəyirəm ki, ilk gündən bu günə qədər burada dövlət tərəfindən bütün lazımi addımlar atılıbdır. Xəstəliyin yayılmasının başlıca səbəbi bəzi insanların məsuliyyətsizliyidir. Onlar sadə qaydaları gözləmirlər, bunlara əməl etmirlər. Ona görə biz məcbur olub cərimələri artırdıq. Bəzi hallarda karantin rejimini pozanlara qarşı sərt addımlar atmağa məcbur oluruq. Ancaq onlar da öz məsuliyyətini dərk etməlidirlər. Bütün qaydalar insanların, o cümlədən karantin rejimini pozanların sağlamlığının qorunmasına hesablanıb. Amma biz görürük ki, insanlar bu rejimi nümayişkaranə pozurlar. Dünən məşhur bir oteldə baş verən o biabırçı hadisə dözülməzdir. Ona görə, əlbəttə, Azərbaycan polisi düz edərək müdaxilə edib. Polis orqanlarına mənim tərəfimdən çox ciddi göstəriş verilibdir ki, bütün pozuntulara adekvat reaksiya verilməlidir. Heç kim qanundan üstün deyil - istər yerli, istər xarici şirkət, istər yerli vətəndaş, istər xarici vətəndaş olsun, fərq etmir, biz xalqımızı qorumalıyıq, biz xalqımızın sağlamlığını qorumalıyıq. Eyni zamanda, mövcud qanunlar və karantin rejimi ilə bağlı tətbiq edilən qaydalar hər kəs üçün əsas olmalıdır. Ona görə biz bundan sonra da bu istiqamətdə addımlarımızı atacağıq. Əgər o qaydaları pozan insanlar daha məsuliyyətli olarlarsa və nizam-intizama riayət edərlərsə, hesab edirəm ki, biz pandemiyanı nəzarətdə saxlaya biləcəyik".

Bir sözlə, vətəndaşlarımız məsuliyyətli olmalı, qoruyucu vasitələrdən istifadə etməlidirlər. Lazım olmayan vaxtlarda insanlar çölə çıxmalı deyillər. Vətəndaşlarımız zəruri olmadığı hallarda insanların çox toplaşdığı yerlərdə olmasınlar. Mütəxəssislərin dediyi kimi, insanlarımız sosial məsafəni qoruyaraq izolyasiya qaydalarına riayət etməlidir. Operativ Qərargahın tövsiyələrinə əməl etsək, gündəlik gigiyena qaydalarına riayət etsək, düzgün qidalansaq virusun sonradan geri qayıtmasının qarşısını ala bilərik.

### Akif Qurbanov: "Qorunma tədbirlərindən başqa çarəmiz yoxdur"

"Bu gün koronavirusa yoluxma sayının nəzarətə götürülməsi üçün əlavə tədbirlərə ehtiyac var",- deyən Azərbaycan Tibb Universitetinin professoru Akif Qurbanov bildirib ki, pandemiya başlayandan indiyə qədər dövlət səviyyəsində ən yüksək tədbirlər görülməkdədir: "Tez zamanda modul tipli xəstəxanalar istifadəyə verildi, ölkəyə yeni preparatlar gətirildi, bütün həkimlər səfərbər edildi, xarici mütəxəssislər cəlb olundu. Bunlar görülən tədbirlərin ancaq bir hissəsidir. Hazırda dünyada yoluxma sayı 60 milyonu keçib. Bu gün bütün dünya xəstəliyə qarşı müxtəlif tədbirlər həyata keçirir. Ancaq yenə də pandemiyanın yayılması səngimək bilmir. Bu gün sadəcə, qorunma tədbirlərindən başqa çarəmiz yoxdur. Hazırda xəstəliyə qarşı əlimizdə vaksin, preparat yoxdur. Qorunma tədbirlərinə düzgün əməl etməliyik. Maskadan düzgün istifadə etməliyik. Maska tənəffüs yollarını bağlamalıdır. Lüzum olmadan yaxınlaşmaq, təmas lazım deyil. Əllərin tez-tez yuyulması çox vacibdir".

Professor, həmçinin bildirib: "Təəssüf ki, vətəndaşlarımız xəstəlik haqqında kifayət qədər məlumata malik deyillər. Belə ki, bir şəxs özündə soyuqlama, xəstələnmə halı hiss edən kimi dərhal xəstəxanaya müraciət edir. O, öz istəyi ilə kompüter tomoqrafiyası və rentgen müayinələrindən keçir və nəticədə ağciyərlərinin təmiz olduğu müəyyənləşir. Həmin şəxs arxayınlaşır ki, ağciyərlərində problem yoxdursa, demək ki, tam sağlamdır. Hamı bilməlidir ki, koronavirusun fəsadlaşması nəticəsində ağciyərlərdə dəyişikliyə, pnevmoniyaya səbəb olur. Xəstəliyin əvvəllərində, ortasında, bəzən sonuna qədər ağciyərdə heç bir dəyişiklik görməyə bilərik. Bəzən hətta həkimlər düzgün olmayan istiqamətləndirmə aparırlar. İnsanların qızdırması olan kimi onları kompüter tomoqrafiyası və ya rentgen müayinəsindən keçməsini məsləhət görürlər. Nəticədə xəstə COVID-19-la xəstələnsə də, ağciyərlərində heç nə olmamasına görə arxayınlaşır. Hamı bilməlidir ki, koronavirusun diaqnozunda kompüter tomoqrafiyası və rentgen müayinələri köməkçi üsullardır, xəstəliyin deyil, fəsadlaşmaların diaqnozu üçündür. Xəstəliyin diaqnozu üçün PZR testinə ehtiyac var. Bu testi xəstə təcili və təxirəsalınmaz tibbi yardım xidmətini çağırdıqda onlar da götürürlər. Bununla yanaşı, virusa yoluxma şübhəsi olanlar müraciət edib testdən keçə bilərlər. Əgər testin cavabı müsbətdirsə, xəstəlik təsdiq olunur. Bundan sonra həmin şəxs evdə özünü təcrid etməli, iş yerinə məlumat verməli və işə getməməlidir. Əksər hallarda bu xəstəlik ya simptomsuz keçir, ya da yüngül soyuqdəymə halları ilə müşayiət olunur. Bu zaman da mütləq özünütəcrid qaydalarına əməl etmək lazımdır".

Bir sözlə, vətəndaşlarımız məsuliyyətli olmalı, karantin rejiminin qaydalarına əməl etməli, xüsuilə də çox sadə qoruyucu metodlardan istifadə etməlidir - məsafə saxlamalıdır, maska taxmalıdır, dezinfeksiya vasitələrindən istifadə etməlidir.

***R.HÜSEYNOVA***




## Azərbaycanda 4 189 nəfər COVID-19-a yoluxdu, 40 nəfər vəfat etdi

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 4 189 yeni yoluxma faktı qeydə alınıb, 2 072 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 40 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 133 733 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 81 234 nəfər müalicə olunaraq sağalıb, 1 510 nəfər vəfat edib, aktiv xəstə sayı 50 989 olub. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 17 609, bu günə qədər isə ümumilikdə 1 781 218 test icra olunub.

## Koreya hökuməti ölkəmizə Səyyar COVID-19 müayinə köşkləri ianə edib



Koronavirus (COVID-19) pandemiyasının qarşısının alınması-na dəstək məqsədilə Koreya hökuməti Azərbaycana 3 ədəd Səyyar COVID-19 müayinə köşkü ianə edib. Bu barədə AZƏRTAC-a İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən bildirilib.

Məlumata görə, dekabrın 3-də Heydər Əliyev adına Beynəlxalq Hava Limanında humanitar yardımın qəbulu mərasimində agentliyin İdarə Heyəti sədrinin müavini Nigar Bayramova, Koreya Respublikasının Azərbaycandakı səfiri Kim Tonq Op və Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) Azərbaycandakı nümayəndəliyinin ölkə üzrə direktoru Kumok Park iştirak ediblər. Nigar Bayramova Koreya hökumətinə öz təşəkkürünü bildirərək, deyib: "Bu addım Koreya hökumətinin müxtəlif şəraitlərdə, xüsusilə pandemiyaya qarşı mübarizə şəraitində dost ölkələrə dəstəyini nümayiş etdirir. Müayinə köşkləri vasitəsilə tibb işçiləri daha az risk altında olacaqlar".

Səfir Kim Tonq Op öz növbəsində bildirib ki, Koreya hökuməti COVID-19 pandemiyası ilə mübarizə tədbirlərində hər zaman Azərbaycan hökumətinə öz dəstəyini göstərməyə hazırdır. Onun sözlərinə görə, müayinə köşkləri xəstə ilə test götürən arasındakı təması sıfıra endirməyə, sosial məsafə normalarına riayət etməyə, fərdi mühafizə vasitələrinə ehtiyacın azaldılmasına və vaxt itkisinin aradan qaldırılmasına kömək olacaq. Qeyd edək ki, yığcam və daşınma üçün münasib olan müayinə köşkləri Heydər Əliyev adına Beynəlxalq Hava Limanında quraşdırılacaq.

# "Böyük qələbəmizi Qələbə paradı keçirməklə qeyd edəcəyik"

*Müsahibimiz millət vəkili Azər Badamovdur*

***- Azər müəllim, Laçının Azərbaycana təhvil verilməsi ilə Dağlıq Qarabağda müharibənin Azərbaycanın parlaq qələbəsi ilə başa çatdığını demək olar?***

- Laçının Azərbaycana təhvil verilməsi tarixi qələbəmizin real həyatda təsdiqi deməkdir. Bu, təkcə Laçının işğaldan azad olunması demək deyil, həm də Azərbaycanın düya tərəfindən tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün təmin olunması deməkdir. Bundan gözəl və xalqı xoşbəxt edici heç nə ola bilməz. Azərbaycanın müzəffər ordusu 5 min kvadrat kilometr ərazisini döyüş meydanında böyük qələbə ilə qaytardı, 5 min kvadrat kilometr ərazimizi isə heç bir güllə atmadan, şəhid vermədən siyasi meydandakı qələbəmizlə qaytartdıq. Bu böyük qələbəmizdir. Azərbaycan son 200 illik tarixində heç vaxt itirdiyi torpaqlarını qaytara bilməmişdir. Amma Prezident İlham Əliyevin güclü siyasi iradəsi, qətiyyəti, uzaq görən siyasəti, vətəninə və torpağına olan böyük məhəbbətiötən əsrin 90-cı illərin əvvəlində ermənilərin işğal etdiyi torpaqlarımızı işğaldan azad etdi. Bu Azərbaycanın parlaq qələbəsidir. Azərbaycan bu qələbəni təmin etməklə beynəlxalq hüququn həll edə bilmədiyi BMT TŞ-nın qətnamələrini icra etmiş oldu. Azərbaycan dünyaya sübut etdi ki, özünün pozulmuş hüquqlarını özü bərpa etmək iqtidarındadır. Vətən müharibəsində biz çox şeyi gördük. Gördük ki, BMT TŞ-nın qətnamələri nəinki icra olunmadı, hətta bu qətnamələrin icra olunmamasına çalışan ölkələr olmuşdur. Biz hamıya siyasi meydanında layiqli cavbını verdik və sübut etdik ki, bizi öz haqq işimizdən heç bir qüvvə çəkindirə bilməz. Ölkə başçısı 44 günlük müharibə dövründə xarici mətbuata verdiyi müsahibələrində və dünya liderləri ilə telefon danışıqlarında verdiyi cavablarında Azərbaycan öz haqq işini gördüyünü və bu yoldan heç kimin bizi çəkindirməyə haqqın olmadığını sübut etdi. Artıq xalqımızın üzərindən məcburi köçkün adı götürüldü. Artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur. Bu gün Prezidentin imzaladığı sərəncamıyla hər il 10 noyabrda Qələbə Gününü qeyd edəcəyik. Bu tarix Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkədir. Biz də qalib ölkənin vətəndaşlarıyıq. Bundan sonra biz xarici ölkələrə səfərlər edəndə qalib ölkənin nümayəndələri olaraq başımızı dik tutub gedəcəyik və sözümüzü deyəcəyik. Bu qələbəni Azərbaycan öz gücü ilə təmin etdi. Əgər ölkəmizin iqtisadi gücü olmasaydı heç vaxt torpaqlarımızı işğaldan azad edə bilməzdik. İqtisadi müstəqilliyi olmayan ölkələr siyasi müstəqillik də əldə edə bilməzlər. Biz hər zaman güclü ölkənin nümayəndələri olaraq siyasi platformalarda sözümüzü demişik . İndi bundan sonra daha da inamlı və qətiyyətli olacayıq. Müharibədə qələbə əldə etmək, qalib olmaq ölkənin statusunu da dəyişir. Azərbaycan bu gün özünü regionun lider ölkəsi olduğunu təsdiq etdi. Bu liderlik həm icra etdiyi regional layihələri ilə sübut etmişdi, indi də döyüş meydanında təsdiq etmiş oldu. Azərbaycan uğurlu ölkədir. Bütün uğurlarımızın təməlində xalq-iqtidar birliyi dayanır. 44 günlük Vətən Müharibəsində bu birlik daha da bərkiyərək dəmir yumruğa çevrildi. O dəmir yumruq ki, düşmənin başından vurmaqla belini qırdı. O dəmir yumruq o qədər qüvvətli olmuşdur ki, düşmənə aldığı zərbədən özünə gəlmək üçün 10 illər lazım gələcəkdir. Bunun üçün də ermənilər azərbaycanlılarla səmimi qonşuluq münasibətlər yaratmağa çalışmalıdır. Əks halda ermənilər heç vaxt özünə gələ bilməzlər. Bu böyük qələbəmizdir. Bu münasibətilə Ali Baş Komandan başda olmaqla bütün xalqımızı təbrik edirəm.



***- Azərbaycan-Ermənistan dövlət sərhəddin Kəlbəcər və Laçın istiqamətində sərhədçilərimizin nə zaman yerləşdirilməsi gözlənilir və ümumilikdə qaçqın və köçkünlərimizin öz yurd-yuvalarına qayıtmasını nə zaman planlaşdırılır?***

- Azərbaycanın Ermənistan üzərində qələbəsi heç də görüləcək bütün işlərin bitməsi demək deyil. Sadəcə müharibə qurtarmış, hərbi əməliyyatlar dayandırılmışdır. Amma , işğal altındakı rayonlarımızın azad olunması Ermənistanla 500 km-dən artıq dövlət sərhədi yaradır. Dövlət sərhədin demarkasiyası və delimitasiyası işləri aparılmalıdır. Artıq bu işlərin həyata keçirilməsinə başlanmışdır. Ermənilər Kəlbəcər rayonun Zod qızıl mədənini qeyri-qanuni istismar edirdilər. Amma hərbiçilərimiz orda filiz çəxartma işlərini dayndırdı və dərhal demarkasiya prosesinə start verildi. Artıq mədən demək olar ki, Azərbaycanın nəzarəti altına keçmişdir. Bu gün sovet Azərbaycanın və Ermənistanın təsdiq olunmuş dövlət sərhədlərinin dəqiqləşdirilməsi işləri aparılır. Düşünürəm ki, dəqiqləşdirmə işləri aparıldıqca müəyyən olunmuş dövlət sərhəslərimizi Dövlət Sərhəd Xidmətinin nəzarətinə veriləcəkdir. Sərhəddə beynəlxalq normalara uyğun tikanlı məftil və lazımı kommunikasiyalar yaradılacaqdır. Düşünürəm ki, bu işləri qısa bir zamanada icra olunacaq. Qaçqın və köçkünlərimizin öz yurd-yuvalarına qayıtması müəyyən zaman aparan məsələdir. Bu mərhələli şəkildə baş verməlidir. İndi həmin ərazilərin minalardan təmizlənməsi işləri aparılır. İlk növbədə yeni infrastruktur yaradılacaq ərazilərin təhlükəsizliyi təmin olunur. İkinci mərhələdə yaşayış məntəqələr minalardan təmizlənəcəkdir. Üçüncü mərhələdə isə yaşayış məntəqlərin ətraf əraziləri, aqrar təyinatlı torpaqlar və digər sahələrin minalardan təmizlənməsi prosesi davam edəcəkdir. Ərazilərimizdə təhlükəsizlik təmin olnduqca paralel olaraq yaşayış məntəqlərin plana uyğun yenidən qurulması işləri görüləcəkdir. Bura yaşayış binaların və sosial obyektlərin tikilməsi aiddir. Bu işlərimizi qısa bir zamanda icrası üçün dövlətimizin kifayət qədər maliyyə vəsaiti vardır. Düşünürəm ki, bütün bu işlər qısa bir zamanda icra olunacaq və mərhələli şəkildə köçkün düşmüş soydaşlarımız öz yurd-yuvalarına qayıda biləcəklər.

***- Dekabrın 10-da qələbə paradının keçiriləcəyi bildirilir, bu parad keçirilməklə Azərbaycanın əzəmətli qələbəsinin, hərbi uğurlarının bütün dünyaya nümayişi olacağını demək olar?***

- Azərbaycanın müzəffər ordusu öz sösünü döyüş meydanında deməklə parlaq qələbəyə imza atmışdır. Qeyd etdiyim kimi ölkəmizin ərazi bütövlüyü təmin olundu. İndi isə Vətən Müharibəsindəki böyük qələbəmizi Qələbə Paradı keçirməklə qeyd edəcəyik. Qələbə bayrağımızı parada gətirilməklə qailb ordumuzun bölmələrini, döyüş texnikalarımızı nümayiş etdirməklə hərbi gücümüzü dünyaya nümayiş edəcəyik. Keçirəcəyimiz Qələbə Paradımıza dünyanın marağı da çox olacaqdır. Çoxlu ölkələr müharibədə Azərbaycanın qələbəsinə inanmırdılar. Amma müzəffər ordumuz döyüş meydanında özünün güclü olduğunu sübut etdi. Dünyanın bir çox ölkələri ordumuzun döyüş strategiyasının öyrənməli olduqlarını bildirirlər. Hamı üçün Azərbaycanın Silahlı Qüvvələrindəki döyüş texnikalarına, ordu birləşmələrinə marağı çoxalmışdır. Düşünürəm ki, keçirəcəyimiz Qələbə Paradmız dünya tərəfindən maraqla və ən çox izlənəcək parad olacaqdır.

***- Necə düşünürsünüz ermənilər hər zaman iddia edirlər ki, Xankəndində və yerlərdə azərbaycanlılarla birgə yaşayışları mümkün deyil, bu halda demək olarmı ki, erməni təxribatı növbəti mərhələlərdə də baş verə bilər?***

- Ermənilərin bu iddiaları nədən irəli gəldiyi məlumdur. Necə olur ki, dünyanın hər yerində eyni yaşayış məntəqələrində, eyni məhllələrdə, eyni binalarda azərbaycanlılarla ermənilər yaşaya bilirlər, bir yerdə oxuyub işləyə bilirlər, amma Xankəndində və yerlərdə birgə yaşayış mümkün olmur. Bu ermənilərin xam xəyallarıdır. Ermənilərin bu günə qədər arzuladıqları xam xəyalları arxada qalmışdır. Azərbaycanın şrəşadətli ordusu döyüş meydanında öz sözünü deməklə yeni reallıqlar yaratmışdır. Artıq Qarabağ Azərbaycandır. Nə qədər tez onlar bunu anlalsalar öz xeyirlərinədir. Bu gün sülhməramlılar oralarda təhlükəsizliyini qurur, birgə yaşayışa icmaların adaptasiyasına şərait yardılacaqdır. Zaman gələcək Xankəndində Azərbaycan bayrağı dalğalanacaq, dövlət strukturlarımız fəaliyyət göstərəcək. Ermənilər bunu qəbul etməyinə məhkumdurlar. Əgər kimlərsə azərbaycanlılarla birə yaşamasını xoşlamırsa rədd olub çıxıb getsinlər, xoşladıqları yerlərdə də yaşasınlar. Biz onların nazıyla və xoşlarına gəlməkləri ilə oynamayacayıq. Hər şeyin öz vaxtı var . Cənab prezidentin dediyi kimi biz nəyin nə vaxt etmək lazım olduğunu yaxşı bilirik. Zaman gələcəkdir ki, Azərbaycanda qalıb yaşamaq istəyən ermənilər bizimlə birgə yaşayacaqlar. Azərbaycanda qalıb yaşamaq da onların xeyrinədir. Çünki, Azərbaycan inkişaf etmiş , güclü iqtisadiyyata malik ölkədir. Onların gözəranı Azərbaycanda Ermənistandan qat- qat yaxşı olacaqdır. Təxribatların baş verəcəyi də gözlənilməndir. Sülh məramlıların fəaliyyəti məhz baş verə biləcək təxribatların qarşısını almaq məqsədi daşıyır. Dövlətimizin müvafiq orqanları da çox mükəmməl işləyirlər və ermənilərin düşündükləri müəyyən təxribatların qarşısı vaxtında alınacaqdır. Azərbaycan 90-cı illərin əvvəlində olduğu ölkə deyil. Biz dövlət strukurlarını yaratmışıq və bu strukturlar ölkədə vətəndaşların təhlükəsiz yaşayışını təmin etmək iqitidarındadır. Düşünrəm ki, əsasiz şayiələrə görə narahat olmağımıza dəyməz.

***Gülyana***

# "8 noyabr - Qarabağ Azərbaycandır! NİDA-sının zəfər tarixi"

"Haqq və ədalətin bərpası uğrunda mübarizə aparan Azərbaycan sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti təcavüzündən sonra başlanan Vətən Müharibəsində Ali Baş Komandanımız, Prezident İlham Əliyev diplomatik siyasəti, Müzəffər Ordumuzun gücü, rəşadətli əsgər və zabitlərimizin şücaəti nəticəsində 30 il işğal altında olan torpaqlarımızın həsrətinə noyabrın 10-da son qoyuldu. 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu "məğlubedilməz ordu"sunu darmadağın etdi. Uzun illər ərzində işğal olunan Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavənd rayonunun böyük hissəsini, Laçın rayonunu işğaldan azad etdi. 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi". Bu fikirləri SİA-ya açıqlamasında YAP Şabran rayon təşkilatının sədri Mehdit Balabəyov deyib.

M.Balabəyob bildirib ki, noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və qeyrət qalamız



Şuşa şəhəri işğaldan azad edildi: "Şuşa azad edildikdən dərhal sonra, noyabrın 9-da Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənabları 71 kəndin, bir qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad olunası barədə ölkə ictimaiyyətini məlumatlandırdı. Beləliklə, hərbi əməliyyatlar zamanı darmadağın edilən düşmən Prezident İlham Əliyevin irəli sürdüyü şərtləri qəbul edərək, məğlubiyyətini etiraf etdi. Bu, Azərbaycan xalqının şanlı qələbəsidir".

"Azərbaycanın şanlı tarixinə 10 noyabr günü qızıl hərflərlə daxil oldu. Belə ki, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi və düşmən məğlubiyyətini etiraf edərək ağ bayraq qaldırdı. Düşmənin ağ bayraq qaldırması ilə yanaşı uzun illərdir işğalda olan ərazilər də öz həqiqi sahiblərinə qayıtdı. Buna qədər 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad edilmişdisə, Ermənistanın məğlubiyyətini etiraf etməsindən sonra qarşıdan gələn 20 gün ərzində bir güllə atmadan, bir şəhid vermədən Ağdam, Kəlbəcər və Laçın işğaldan azad edildi", - deyən M.Balabəyov onu da vurğulayıb ki, bu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsi zamanı düşməni diz çökdürdü, torpaqlarımızı işğalçılardan təmizlədi, ərazi bütövlüyümüzü bərpa etdi, tarixi ədalət bərpa olundu: "İşğaldan, əsirlikdən azad edilən digər torpaqlarımız kimi ölkəmiz üçün strateji əhəmiyyət daşıyan Laçın rayonu da 28 ildən sonra əsl sahiblərinə qaytarıldı. Laçının erməni vandallarından xilası Böyük Qələbənin davamı olaraq qondarma Dağlıq Qarabağ iddiasına son qoydu. Bu qələbə xalqımızın əzmini, qəhrəmanlığını bir daha bütün dünyaya nümayiş etdirdi. Bütün dünya gördü ki, Azərbaycan xalqı heç vaxt məğlubiyyətlə barışmayacaq və gec-tez öz amalına qovuşacaqdır. Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca səbəbidir".

"Çıxışlarında Qarabağ Azərbaycandır və nida" deyən Prezident, Ali Baş Komandanımız Cənab İlham Əliyev bir daha xalqa verdiyi bütün vədlərə sadiq olduğunu nümayiş etdirdi", - deyən M.Balabəyov onu da bildirib ki, bu gün illərlə düşmən tapdağı altında olan torpaqlarımız azad edildi, haqq yerini tutdu, ədalət bərpa olundu: "Dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Laçının işğaldan azad edilməsi münasibətilə xalqa müraciətində bir daha bildirdi ki, bizim qələbəmiz tarixi Qələbədir. Biz bir neçə rayonu döyüş meydanında düşməndən azad etdik, üç rayonu düşməni məcbur edərək qaytardıq və beləliklə, Dağlıq Qarabağ münaqişəsini həll etdik. İndi artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur. Əgər kimsə hesab edir ki, bu münaqişə hələ də davam edir, səhv edir. Bu gün Dağlıq Qarabağda yaşayan insanlar Azərbaycan vətəndaşlarıdır".

M.Balabəyov sonda onu da vurğulayıb ki, "Qarabağ Azərbaycandır! və nida" deyən Prezident İlham Əliyev bir daha xalqa verdiyi bütün vədlərə sadiq olduğunu nümayiş etdirdi. Özünün tarixi, coğrafi mövqeyinə görə Azərbaycanın ən qədim və strateji cəhətdən vacib olan yaşayış məskənlərindən sayılan Laçının işğaldan azad edilməsi münasibətilə xalqımızı təbrik edərkən dövlətimizin başçısı hər bir Azərbaycan vətəndaşının illərlə arzusunda olduğu sözləri dilə gətirdi: "Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".

***Rəfiqə HÜSEYNOVA***

# Şillə dalınca şapalaq



***Məhbus mübadiləsi zamanı erməni tərəfi "hamının hamıya" prinsipini tətbiq etməyi təklif edir. Bunu baş nazirin müavini Tiqran Avinyan dünən Rusiyanın Ermənistandakı səfiri Sergey Kopirkin ilə görüşdə söylədi. Hətta gələcəkdə tərəflərdən hər hansı birində yeni məhbuslar ortaya çıxsa, dərhal və heç bir şərt qoyulmadan geri qaytarılacaq bir mexanizm yaradılması da təklif olunur. Xatırladaq ki, Azərbaycanın Əsir və itkin düşmüş şəxslərlə iş üzrə Dövlət Komissiyası da məhbus mübadiləsində "hamının hamıya" prinsipini dəstəklədiyini bildirib. Amma bu vaxta qədər Ermənistan tərəfinin bununla bağlı mövqeyi tamamilə fərqli olub.***

Maraqlıdır ki, rəsmi Bakı bu prinsipi irəli sürdüyü zaman Ermənistan tərəfi niyə mövqesizlik nümayiş etdirdi? Müharibədən əvvəl də təsadüfən əsir götürülmüş Azərbaycanlı əsirlər Dilham Əsgərov və Şahbaz Quliyevin qaytarılması ilə bağlı ermənilər hər zaman mövzudan yayınırdılar. Hətta, müharibə zamanı Azərbaycan Ordusu işğal altında olan əraziləri işğaldan azad etdiyi zaman Qarabağda saxlanılan həmin əsirlər Ermənistana aparıldı və bu da təsdiq edir ki, ermənilər bu vaxta qədər, indi səsləndirdikləri "hamının hamıya" prinsipinə qəti şəkildə razı olmayıblar. İndi nə oldu və külək hansı yandan əsdi ki, belə bir prinspdən dəm vurası oldular? Uzun illərdir ki, erməni tərəfi sərhədi təsadüfən keçən insanlara bunun şamil olunmayacağı qənaətində olublar. Maraqlıdır, yenə də belə qənaətdədirlərmi və bu qənaətdədirlərsə, hansı prinspdəm dəm vururlar? İndi erməni tərəfi prinsipin hər kəsə tətbiq olunacağını elan edir. Amma, bunun bu müharibədən əvvəl əsir düşənlərə aid olub olmadığı da hələ özləri üçün də müəmmalı olduğunu Ermənistan mediası etiraf edir.

Artıq Ermənistana məxsus, hətta mövcud hakimiyyətin əlində olan, tapşırıqlarını yerinə yetirən media belə etiraf edir ki, Paşinyan hökumətinin hərəkətsizliyi, cəhaləti, səriştəsizliyi və erməni tərəfinin məğlubiyyəti göz önündədir. Etiraf olunur ki, bu, nəinki ölkənin sərhədlərinə və ərazi bütövlüyünə nəzarət edə bilməyən, eyni zamanda yüzlərlə ailənin faciəvi atmosferini dəyişdirmək üçün məhbuslar və itkin düşənlər problemi üzərində gecə-gündüz işləyə bilməyən bir hökumətdir.

Dağlıq Qarabağın işğaldan azad olunması istiqamətində 44 günlük müharibədən sonra Azərbaycan tərəfində 60 erməni əsirinin olduğu barədə məlumatlar yayılıb Ermənistan mediasında. Hətta, qondarma rejimin bir insan haqları müdafiəçisi, onların əksəriyyətinin İnternetdə yayılan videolar və qohumlarının verdiyi digər ifadələr əsasında müəyyən edildiyini iddia edir.

Müharibədən 23 gün sonra hələ də əsir düşən, itkin düşmüş hərbçilərin valideynləri müxtəlif hökumət binaları qarşısında etiraz edir və əsir götürülən mülki şəxslərin yaxınları "Qırmızı Xaç"ın qapıları qarşısındadırlar və yaxınları haqda məlumat gözləyirlər. Ermənistan hökumətinin nümayəndələri və insan haqları fəalları, 50-dən çox erməni məhbusla bağlı Avropa İnsan Haqları Məhkəməsinin (AİHM) Strasburq Məhkəməsinə müraciət ediblər.

Xatırladaq ki, erməni mətbuatı yazır ki, üçtərəfli müqavilənin 8-ci maddəsində hərbi əsirlərin, digər məhbusların və ölənlərin cəsədlərinin mübadilə ediləcəyi bildirilir. İddia edilir ki, müqavilədə hər hansı bir son tarixin və ya bir müddətin sürətlə yerinə yetirilməsinə dair bir söz yoxdur. Hətta, Human Rights Watch tərəfindən erməni məhbuslarla qeyri-insani rəftar barədə guya dəhşətli xəbərlər verildiyi də bildirilir. Halbuki, erməni əsilli əsirlərə Azərbaycan tərəfi heç də şiddət tətbiq etməyib. Əksinə, qaytarılan əsirlərin heç birində belə bunun əksini söyləmək üçün əsasverici faktlar müşahidə edilməyib.

Bəli, Ermənistan tərəfi müharibədə uduzdu. Cəmi 44 gündən artıq tab gətirə bilmədi ermənilər Azərbaycan Ordusu qarşısında. Bu ermənilər üçün rüsvayçı bir məğlubiyyət hesab olunur. Üstəlik, düşdükləri acınacaqlı vəziyyətdən dolayı baş nazir Nikol Paşinyan ermənilər üçün rüsvayçı bir sənədə, məğlubiyyətlərini əks etdirən sənədə imza atdı. Müharibə meydanında rüsvayçı məğlubiyyətlərinin ardınca, diplomatik müstəvidə də rüsvayçı məğlubiyyətlə qarşılaşdılar. Əbəs yerə deyil ki, erməni cəmiyyəti, Ermənistan vətəndaşları hələ də bu rüsvayçılıqla barışa bilmirlər. Müharibənin məğlubiyyəti ilə bağlı Ermənistan tərəfinin aldığı şillənin ardınca da diplomatik bir şapalaq gördülər. Bu rüsvayçılıqlarını nəinki hərbi, siyasi ekspertlər, elə ən sadə Ermənistan vətəndaşı da başa düşür və etiraf edir.

İndi də ən maraqlı məqam ondan ibarətdir ki, bu məğlubiyyətləri ilə barışmaq istəməyən kütlənin qarşısında Ermənistan hökuməti hər zaman boyun qaçırdığı "hamının hamıya" prinsiplərini bəyan edir. Bu fakt özü də erməni cəmiyyətini qıcıqlandırır. Bunu ermənilər öz hakimiyyətlərinin növbəti məğlubiyyəti hesab etməklə kifayətlənmir. Hazırda Ermənistan ictimaiyyəti hesab edir ki, bu işğalçı ölkənin hakimiyyəti, ümumilikdə həmin dövlət Azərbaycan qarşısında bütün şərtlərə razılıq verir və növbəti dəfə alçalır. Hesab edirlər ki, Ermənistan hökuməti Azərbaycan dövləti qarşısında şərt qoymaq əvəzinə, qarşı tərəfin şərtlərinə müti şəkildə razı olur. Bu vəziyyət isə Nikol paşinyan hakimiyyətinə qarşı olan qıcığın, qəzəbin daha da artması deməkdir və bunu da hər kəs müşahidə edir. Onsuz da rüsvayçılıqları, alçalmaları fonunda ən ağız zərbəyə məruz qaldıqlarının, tərs şillə aldıqlarının fərqində olanlar indi də şillənin ardınca şapalaq zərbəsi ilə qarşılaşmalı oldular.

Amma, ədalət naminə etiraf etmək lazımdır ki, bu zərbələri həmin cəmiyyət, elə başda onun baş naziri, ətrafı, hakimiyyət komandası olmaqla haqq edib.

***İnam Hacıyev***

## Keçmiş məhkum oğurluq üstündə tutuldu



Oğurluqda şübhəli bilinən Yevlax şəhər sakini M.Nadirov saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Yevlax RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazindəki 2 həyətdən müxtəlif əşyalar və ev quşları oğurlamaqda şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş M.Nadirov saxlanılıb.



© Dmitri Lovetsky/AP/dpa/picture alliance

## Ermənistanda yenidən etiraz dalğası: İrəvanda çaxnaşma

Ermənistanın paytaxtı İrəvanda daha bir etiraz aksiyası baş tutub. SİA xəbər verir ki, baş prokurorluğun inzibati binasının qarşısında Milli Gündəm partiyasının nümayəndələri baş nazir Nikol Paşinyana qarşı xəyanət ittihamı ilə cinayət işi başlanmasını tələb edən etiraz aksiyası keçirib. Etirazçılar baş nazirin təslim bəyanatını imzalayaraq dövlətə xəyanət etdiyinə görə məsuliyyətə cəlb edilməli olduğuna inanırlar.

Milli Gündəm partiyasının lideri Ara Akopyan dövlətçiliyin və ölkənin ciddi təhlükə ilə üzləşdiyini bildirib. Onun sözlərinə görə, ölkənin və vətəndaşların taleyi ilə bağlı qərarlar Azərbaycan da daxil olmaqla, digər ölkələr tərəfindən verilir. Akopyan hesab edir ki, parlamentdə baş nazirin impiçmenti prosesini başlatmaq, eyni zamanda, başqa bir baş nazir və böhran hökuməti təyin etmək lazımdır. "O, biabırçı təslim sənədini imzalayan və xalqı, ölkəni təmsil edə bilməyən məğlub baş nazirdir", - o deyib. 17 müxalifət partiyası baş nazir Nikol Paşinyan tərəfindən Qarabağla bağlı üçtərəfli bəyanatın imzalanmasına etiraz olaraq 10 noyabrdan bəri İrəvanda mitinqlər keçirir. Müxalifət Paşinyanın istefasını, xilasetmə komitəsinin yaradılmasını və bəyanatın bəzi müddəalarında dəyişiklik edilməsini tələb edir.

***Aysel Məmmədova***

## "Fakt" qəzeti: Ermənistanın hakim partiyasını 20 deputat tərk edir

Ermənistanın hakim, "Mənim addımım" partiyasında 20-yə yaxın deputat partiya sıralarını tərk etməyə hazırdır. SİA Ermənistana məxsus hayeli.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə "Fakt" qəzeti yazır.



Qəzetin yazdığına görə, dünən gecə yarısına qədər Nikol Paşinyan Milli Məclisin iclas salonunda Milli Məclisin "Mənim Addımım" fraksiyası ilə qapalı bir toplantı keçirib, hətta təhlükəsizlik işçilərinə belə ərazini tərk etmək əmri verilib. Paşinyan komandaya güvəndiyini, bu fırtınalı mərhələyə tab gətirəcəklərini qeyd etsə də, buna özü belə şübhə etdiyi bilidilir.

Qəzetin mənbəsi erməni baş nazirinin kifayət qədər narazı olan üzə sahib sifətdə olduğunu xatırladaraq qeyd edib ki, Paşinyan rəhbərlik etdiyi partiyanı tərk edənlərə bu barədə ona açıq mətnlə bildirməli olduqlarını da xatırladıb. Yeri gəlmişkən, erkən seçkilərin keçirilməsi məsələsi də dönüş olaraq müzakirə edilib.

Nəşr qeyd edib ki, Paşinyan, komandanın vahid namizədlə bağlı bir fikir birliyinə sahib olacağı təqdirdə, kimsəni namizəd olaraq irəli sürmək istəmədiyini də söyləyib.

"Əldə edilən məlumatlara görə, hazırda iqtidar fraksiyasında, baş nazirliyə yeni bir namizəd göstəriləcəyi təqdirdə, fraksiyadan ayrılmağa və müxalifət namizədini dəstəkləməyə hazır olan 20-yə yaxın deputat var", deyə "Fakt" qəzeti yazır.

# Ailə institutumuz: hansı təsirlər var, necə qarşısını almaq olar?

**Sağlam ailələr sağlam cəmiyyəti, sağlam cəmiyyət isə sağlam dövləti qurur**

Azərbaycanın min illərlə davam edən adət-ənənələr, ictimai qaydalar və yazılmamış qanunlar var. Son dövrlərdə cəmiyyət yenilik arxasınca yola çıxaraq yaşam tərzinə yeni abı-hava qatmaq istəyir. Bunu çox zaman "müasirlik" adlandırırlar. Son illər əsasən cəmiyyətin gənc hissəsinin "avropalaşmaq" istəyi min illərin köklü dəyərlərinə zidd ab-hava qatmaqdadır. Bu tendensiyanın nəticələri öğzünü bir çox ciddi problemlərin yaranmasına və ya kəskin artmasında biruzə verir. Konkret desək, milli-mənəvi dəyərlərimiz itirilir, ailə institumuz dağılır. Sağlam ailəsi, dərin köklərə malik cəmiyyəti olan Azərbaycanın mənəvi dəyərlərinin dəyişməsinə ehtiyac varmı?

## Ailədən cəmiyyətə nə ötürülür?

Ailənin sağlamlığı cəmiyyətin təməlinin sağlam qoyulması deməkdir. Sağlam cəmiyyətin təşəkkülündəki ailələr isə milli-mənəvi dəyərləri dəyər-dəyməzinə "sataraq" yenilik, müasirlik axtarışında olan ailələr olmamalıdır. Azərbaycanın milli-mənəvi dəyərləri aspektindən sağlam ailə milli-mənəvi dəyərlərinə hörmət edən, ata-babasından aldığı adət-ənənəni övladına ötürən insanların olduğu ailədir. Bizim cəmiyyətin milli dəyər anlayışı ailədən başlayır. Bu səbəbdən hər bir azərbaycanlının ailəsindəki ənənəyə bağlılıq sağlam cəmiyyətin qurulmasına xidmət edir.

Son dövrlərdə Azərbaycanda da gənclərin əksəriyyəti ailə qurandan sonra ailəsindən ayrı yaşamağa can atır. Bundan başqa, ailəsi də eyni şəhərdə yaşadığı halda öz dostları, institut yoldaşları ilə birlikdə yaşamağın həvəsində olan kifayət qədər gənc var.

Bu, yad dəyərlərin təsiri, həmçinin, televiziyaların, internetin bizim cəmiyyətə "töhfə"sidir. Yeniyetmə görür ki, başqa ölkələrdə 16-17 yaşlı yeniyetmələr özü işləyir, pul qazanır, tək yaşayır, pulunu bara, əyləncə məkanlarına xərcləyir, heç kimə hesabat vermir. Bizim gənclərə bu cəzbedici təsir bağışlayır, çoxdandır ayrı yaşamaq, tək qalmaq barədə düşündüklərini reallaşdırmaq istəyir, amma valideynlər imkan vermir.

Tutaq ki, bir ailənin bir oğlu var, o tələbə yoldaşlarının tək yaşadığını görür, həvəslənir. Kəndlərdən, kiçik şəhərlərdən təhsil almaq üçün böyük şəhərlərə gələn gənclərin kirayə evlərdə, yataqxanalarda öz yaşıdları ilə birlikdə qalması valideyni ilə yaşayan gənclərə olduqca maraqlı gəlir və onlar da ayrı yaşamaq istəyirlər. Valideynlər icazə vermir. Ailənin möhkəm təməlinin yavaş-yavaş boşalması da məhz bu kimi səbəblərdən yaranır.

## Ailədə və cəmiyyətdə ahəng möhkəmlik yaradır

Sosioloq və psixoloqlar sağlam ailə üçün mənəvi dəyərlərin fiziki sağlamlıq qədər vacib olduğunu deyirlər. Əksər sosioloqlar hesab edir ki, azərbaycanlı psixologiyasında ailə faktoru digər xalqlarla nisbətdə daha dərin və uzunömürlüdür. Çünki daha çox gənclərin "geridəqalmışlıq" hesab etdiyi adətlər sayəsində yüz illərdir ölkəmizdə sağlam cəmiyyət, sağlam ailə yaratmaq mümkün olub. Azərbaycan ailələrində valideyn hətta övladını evləndirdikdən sonra belə öz yanından ayırmır, bir evdə yaşamaq istəyir. Bu da sevgidən, qayğıdan irəli gəlir.

Amma bir çox ölkədə uşağın 16 və ya 18 yaşı olan kimi valideyn tələb edir ki, get işlə, özünə ev tut, ayrıca yaşa. Onlar üçün doğmalıq anlayışı yoxdur, ailədə də hər kəs öz qazancı ilə yaşayır. Ona görə də, mənəvi dəyərləri möhkəm deyil, ailə cəmiyyətdə 2-ci dərəcəli plana keçir. Dolayısı ilə həm ailə, həm də cəmiyyət möhkəm olmur. Çünki ailə cəmiyyətə mənəvi sağlam fərd verə bilmir.

Sosioloq Əhməd Qeşəmoğlunun fikrincə, ailə cəmiyyətin sosial mərkəzidir və o mərkəzin idarəsində ahəng önəmlidir: "Bu ahəngi ailədə yarada biliriksə, cəmiyyətimizdə də ahəng, uyğunluq və möhkəm təməl olur. Azərbaycanın ailə modeli, ailə institutu ölkənin ən böyük mənəvi dəyərlərindən biridir. Gərək bilək ki, ən böyük mənəvi dəyərimiz ailə institutudur və onu qorumalıyıq.

İndi dünyada elə proseslər gedir ki, mənəvi problemlər arxa plana keçməkdə və maddi dəyərlər önə çıxmaqdadır. Bu bizim cəmiyyətdə də baş verir. Ən xoşagəlməz hal budur ki, maddi dəyərlərə üstünlük verdiyimiz halda, mənəvi dəyərlərimiz çox güclü təzyiqə məruz qalır, bundan da ailə və cəmiyyət zərər görür. Çalışmaq lazımdır ki, ailədə mənəvi dəyərlər ön sırada saxlayaq. Bu ailənin cəmiyyətdə sağlam yer qazanmasına kömək edəcək".

## Ailənin təməlini möhkəm qursaq...

Sağlam ailənin təməli həm də sağlam evliliklə qoyulur. Gələcək ailənin hər iki fərdi bir-birini anlamaqla yanaşı mənəvi xüsusiyyətlərinə görə də uyğun olsa yaxşıdır. Ailədəki hər xırda narazılıqdan böyük problem yaradan tərəflərin sağlam ailə qurmaq şansı az olur ki, bunun zərərini də cəmiyyət çəkir.

Psixoloq-pedaqoq İbrahim Cəfərov deyir ki, altruist təfəkkürdən eqoist təfəkkürə keçmə prosesi problemlər yaradır: "Sağlam ailə qurmaq istəyində olan bəzi kişilər, gələcək uşaqlarını yaxşı tərbiyə edə biləcək qadın axtarır, bəzisi bir ömür boyu güvənəcəyi, sirdaş olacağı qadın axtarır, bəzisi isə ömür boyu aşiq ola biləcəyi bir qadınla evlənmək istəyirlər. Həyat yoldaşını yalnız gözəlliyinə, fiziki formasına görə seçənlər də var. Bu eqoist yanaşmadır və yaxşı nəticə vermir".

Müsahibimiz deyir ki, sağlam ailənin qurulmasında əsas amillərdən biri də ailədə gender problemlərinə yer verməməkdir: "Cəmiyyətin bütün problemləri də məhz bu cür gender bərabərsizliyi olan ailələrdən qaynaqlanır. Bir çox ailədə söz sahibi olmaq üçün dava olur. Ya qadın hər dediyinin olmasını istəyir, ya da kişi. Qarşılıqlı anlaşaraq, məsələni müzakirə edərək həll etmək istəmirlər, heç kim güzəştə getmir. Belə olduqda isə narazılıq böyüyür. Ailələrdə narazılıqların çoxalması cəmiyyətə də yansıyır. Sağlam ailəsi olmayan cəmiyyətin sağlam formalaşması mümkün deyil. Gender probleminin əsası da məhz ailələrdə qoyurlur, cəmiyyətdə böyüyür".

## Boşanmalar sağlam cəmiyyəti hədələyir

Adət-ənənələrin gündəlik yaşayış tərzimizdən uzaqlaşdırılması sonda ailə institunun deformasiyaya uğramasına və ailələrin dağılmasına gətirib çıxarır. Əlbəttə, Azərbaycan qədim xalq adət-ənənələri, milli-mənəvi dəyərləri əsasında formalaşmış cəmiyyət və dövlətdir. Amma bu və ya digər səbəblər üzündən cəmiyyətin bəzi üzvləri tərəfindən bu dəyərlər nəzərə alınmır və sonda xoşagəlməz hallar baş verir. Bu hallar isə, ilk növbədə ailələrə, daha sonra isə cəmiyyətə təsir göstərir.

Bu gün bütün dünyada olduğu kimi, Azərbaycanda da boşananların sayı artır. Hüquqşünas Leyla Məhərrəmova deyir ki, ölkəmizdə boşanma halları müxtəlif səbəblərdən baş verir: "İnsanlar daha çox münasibətlərin yolunda getməməsi, xasiyyətin uyğun gəlməməsi səbəbindən boşanır. Ailə quranda fikir vermədikləri amillər sonradan onları narahat edir, boşanmaya qədər gətirib çıxarır. Cəmiyyətdə boşanma halları artırsa, bu dövlət üçün də ciddi problemdir.

Bir çox hallarda boşanmaların artmasını sosial problemlərlə əlaqələndirməyə çalışır. Lakin mütəxəssis bununla razılamır: "Statistikaya nəzər saldıqda görürük ki, ailələrin dağılması heç də əsasən sosial-iqtisadi amillərlə bağlı deyil. Çünki, imkansız ailələrdə boşanma halları azdır, imkanlılarda daha çoxdur. Statistika göstərir ki, ölkəmizdə boşanmaların əksəriyyəti sosial yox, mənəvi-psixoloji problemlərin payına düşür. Mənəvi cəhətdən sağlam fərdlərdən ibarət ailələrdə boşanma faizi sion dərəcə aşağıdır".

## Sağlam ailə və cəmiyyət dövlətin marağındadır

Ümumiyyətlə, ailə dəyərlərinin qorunmasında cəmiyyətin və dövlətin bütün institutları aktiv və məsuliyyətli olmalıdır. Əgər ailəni sağlam qursaq cəmiyyətə də sağlam fərdlər vermiş olarıq. Düzdür, Azərbaycanda boşanmalar, müxtəlif ailə problemlərinin səviyyəsi digər ölkələrdən dəfələrlə aşağıdır, lakin son illərdə bu halların artması müşahidə olunur ki, bu qlobal təsirlərlə bağlıdır.

Bu gün ailələrin möhkəm, sağlam olması Azərbaycan dövlətinin də marağındadır. Axı sağlam cəmiyyəti sağlam ailə yaradır, sağlam dövləti isə sağlam cəmiyyət qurur. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ailələrlə bağlı dövlət siyasətinin təmin edilməsi məqsədi ilə bir sıra tədbirlər həyata keçirir. Komitə tərəfindən gənc nəsil arasında ailə dəyərlərinin qorunub saxlanılması, uşaq və yeniyetmələrin milli mənəvi ruhda tərbiyə edilməsi, onlara sağlam həyat tərzinin aşılanması istiqamətində mütəmadi olaraq maarifləndirmə kampaniyası reallaşdırılır.

Lakin, bu istiqamətdə Komitənin gördüyü işlər qənaətbəxş deyil. Azərbaycanda ailə siyasətinin əsas prinsipləri mənəvi dəyərlərə söykənməlidir. Bu, güclü, sağlam cəmiyyətin təməl daşlarının uzun müddət sarsılmayacağını təmin edə bilər.

"Sağlam ailə, sağlam cəmiyyət, sağlam dövlət" prinsipi Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyətinin əsas prioritetlərindən birini təşkil edir. "Azərbaycan cəmiyyəti milli-mənəvi dəyərlər üzərində inkişaf etməlidir" deyən dövlət başçısı öz siyasətində də buna üstünlük verir. Bu siyasət isə sağlam cəmiyyət, güclü dövlət proqramının əsas prinsipidir.

**Lalə Mehralı**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb.*



# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

4 dekabr

QARABAĞ AZƏRBAYCANDIR!


## Ronaldodan yeni rekord və 750-ci qol!




"Yuventus"un futbolçusu Kriştiano Ronaldo futbol üzrə UEFA Çempionlar Liqasında yeni rekorda imza atıb. Qol.az xarici KİV-lərə istinadən xəbər verir ki, o, buna ÇL-in 5-ci turunda "Dinamo" ilə matçda (3:0) fərqlənərək nail olub. Bununla, portuqaliyalı hücumçu ÇL-in ev matçlarında vurduğu qolların sayını 71-ə çatdırıb və bu göstəricidə "Barselona"nın kapitanı Lionel Messini (70 qol ) geridə qoyub. Qeyd edək ki, 35 yaşlı hücumçu eyni zamanda karyerasının 750-ci qolunu vurub.

## Pele Maradonadan yazdı: "Dieqo, səni sevirəm"



Əfsanəvi futbolçu Pele Dieqo Maradonanın ölümündən sonra onun haqda fikirlərini bölüşüb. Qol.az xəbər verir ki, 70 yaşlı sabiq hücumçu öz İnstaqram hesabında bunları yazıb: "Bu gün ölümündən 7 gün ötür. Çoxları bütün ömrü boyu bizi müqayisə etməyi sevib. Sən dünyanı ovsunlayan dahi idin. Əsl əfsanə, ayağında top olan bir sehirbaz idin. Ancaq hər şeydən əvvəl mənim üçün böyük bir qəlb dostu kimi qalacaqsan. Bu gün başa düşürəm ki, insanlar daha az müqayisə edilsəydi, bir-birlərinə çox heyran olsaydılar, dünya daha yaxşı olardı. Sən müqayisəolunmazsan. Öz yolunda dürüst idin. Bənzərsiz üslubunla bizə daha çox sevməli olduğumuzu və "səni sevirəm" deməyi öyrətdin. Dünyadan erkən köçməyin bunu sənə deməyimə imkan vermədi. Ona görə də indi söyləyirəm: "Dieqo, səni sevirəm".

Böyük dostum, hər şey üçün çox sağ ol. Bir gün cənnətdə komanda şəklində birlikdə oynayacağıq. Bu vaxt ilk dəfə qol vurmadan zəfərlə yumruğumu göyə qaldıracağam. Nəhayət, səni yenidən qucaqlaya biləcəyəm". Qeyd edək ki, Maradona noyabrın 25-də 60 yaşında ürək tutması səbəbindən dünyasını dəyişib.

## Neymar Messi ilə yenidən birlikdə oynamaq istəyir

Fransanın PSJ klubunun futbolçusu Neymar İspaniya "Barselona"sında çıxış edən Lionel Messi ilə yenidən birlikdə oynamaq istədiyini açılayıb. SİA "Marca"ya istinadən xəbər verir ki, 28 yaşlı hücumçu meydanda argentinalı forvardla yanaşı olmaqdan zövq aldığını söyləyib. Braziliyalı oyunçu növbəti mövsüm Messi ilə eyni komandada çıxış edə biləcəklərini vurğulayıb.




Qeyd edək ki, Neymar 2017-ci ilin yayında 222 milyon avro qarşılığında "Barselona"dan PSJ-yə keçib. Onun paytaxt klubu ilə sözləşməsi 2022-ci ilin yayında başa çatmalıdır.

## Koronavirusa ikinci yoluxmanın orqanizm üçün fəsadları - Alimdən açıqlama

Koronavirusdan sağalan şəxslərin orqanizmlərində bir müddət müxtəlif şikayətlərin olması gözləniləndir. Amma bu şikayətlərin olması onların ikinci dəfə virusa yoluxması demək deyil. Virusa yenidən yoluxma o qədər də səsləndiyi kimi sadə bir şey deyil. Bu günə qədər aparılan elmi tədqiqatlara əsasən ikinci yoluxmanın bir neçə aydan sonra baş verməsi ehtimal olunandır, amma yeniden yoluxma baş versə də mütləq olaraq ikinci yoluxma əvvəlkindən daha yüngül olacaq.

Bu fikirləri Xəzərxəbər.az-a açıqlamasında Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri, Köln Universiteti Klinikasının tibb elmləri doktoru, azərbaycanlı alim Nuran Abdullayev COVID-19-un insan orqanizminə təsirləri barədə danışarkən deyib. Onun sözlərinə görə, hələ bir müddət əvvəl koronavirusdan sağalan şəxslərin orqanizmində yaranan fəsadlarla bağlı elmi tədqiqatlar aparılarkən pasiyentlərin şikayətləri üzrə problemlər müəyyənləşib:



"Xəstəxanada COVID-19-dan müalicə alaraq sağalan 143 nəfər üzərində aparılan tədqiqatla bir çox məqamlara aydınlıq gətirilib. Sağaldıqdan sonra həmin şəxslərin 44%-nin gündəlik yaşam keyfiyyəti aşağı olması müəyyənləşib. Eyni zamanda sağalan şəxslərin yarıdan çoxunda uzunmüddətli əzginlik və yorğunluq simptomuna rast gəlinib. Əksər şəxslərdə təngnəfəsliyin hələ də qaldığı, bir hissəsində oynaq ağrılarının, bəzilərinin də isə döş qəfəsində ağrıların mövcudluğu müəyyənləşib. Hətta öskürəyin də qalması faktı müşahidə edilib".

Azərbaycanlı alim bildirib ki, sağaldıqdan sonra insanlarda bu simptomların olması onların virus daşıyıcısı olması demək deyil. Tibb elmləri doktorunun sözlərinə görə, sağalan xəstələrdə virusun orqanizmdə törətdiyi bu kimi fəsadların qalması, amma müəyyən müddətdən sonra yox olması realdır.

Nuran Abdullayev COVID-19-a ikinci dəfə yoluxan ş?əxslərin orqanizmində hansı fəsadların yaranması məsələsində aydınlıq gətirib: "Qısa zaman çərçivəsində virusdan qorunma tədbirlərinə əməl edərkən koronavirusa həqiqi təkrar yoluxma çox nadir hallarda qeydə alınır. İkinci yoluxma zamanı insanlar xəstəliyi yüngül keçirirlər. Amma xəstəliyin ağır keçməsi müşahidə olunarsa, ilk yoluxmanın həqiqətən də COVID-19 olması barədə ciddi şübhələr yaranır".

## UEFA "Qarabağ"a 40 min avrodan çox pul ödədi

UEFA "Qarabağ" klubunun hesabına növbəti dəfə pul ödəyib. SİA xəbər verir ki, vəsait AFFA-nın vasitəçiliyi ilə Ağdam təmsilçisinin hesabına köçürülüb. Ölkə çempionu Azərbaycan Premyer Liqasının UEFA reytinqinə əsasən tutduğu mövqe nəzərə alınmaqla, cari mövsüm avrokuboklarda mübarizəni davam etdirən klub olaraq 20000 (iyirmi min) avro, UEFA Avropa Liqasının 2019/2020-ci il mövsümündən balans olaraq - 26390 (iyirmi altı min üç yüz doxsan) avro əldə edib.

QARABAĞ FK

## Gəncədə idman kompleksindən oğurluq edən şəxs tutulub

Gəncədə idman kompleksindən oğurluq edən şəxs tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Kəpəz Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisindəki idman komplekslərinin birindən 875 manat dəyərində 4 qapı, 3 qapı kilidi və hamam aksesuarları oğurlamaqda şübhəli bilinən Gəncə şəhər sakini E.Məmmədov saxlanılıb. Faktla bağlı Kəpəz Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.




*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
*"Azərbaycan" nəşriyyatında çap olunur*
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**